

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 25 (24.460)

5 iyul 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# İƏT-in 17-ci Zirvə görüşü:

## Beynəlxalq səviyyədə artan nüfuz, göstərilən etimad

## Regionun siyasi, iqtisadi nəbzi Xankəndidə döyünür




Səhifə ⇨ 2

# Bakı görüşü: Azərbaycan-Özbəkistan münasibətlərinin müttəfiqlik xarakterinin təsdiqi



Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə dərin köklərə malik tarixi mədəni əlaqələri, etnik birliyi son illərdə siyasi müstəvidə də özünü ən bariz şəkildə göstərir, müxtəlif beynəlxalq tədbirlərdə ölkələr vahid geosiyasi məkan kimi çıxış edirlər. Bu xüsusda dillərin yaxınlığı, xalqlar arasında qarşılıqlı hörmətin mövcudluğu Özbəkistanla münasibətlərimizin daha da sıxlığını şərtləndirir. Azərbaycan ilə Özbəkistan arasında milli-mənəvi bağların möhkəmliyini Türk Dövlətlər Təşkilatı, TÜRKSOY, TÜRKPA, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər platformalar da təsdiqləyir. Son 3 ildə liderlərin mütəmadi xarakter alan qarşılıqlı səfərləri siyasi baxışların kəsişməsindən, iqtisadi əməkdaşlığın güclü perspektivindən xəbər verir. İyulun 2-də baş tutan Özbəkistan Prezidentinin ölkəmizə dövlət səfəri iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ilinə təsadüf etməsi baxımından daha böyük əhəmiyyətə malik addımların atılması ilə nəticələnərək yaxın gələcəkdə regionun geosiyasi mənzərəsinin daha yaxşı yöndə dəyişəcəyinə, mövcud müttəfiqliyin daha da möhkəmlənəcəyinə əminlik yaratdı.

Özbəkistan liderinin İƏT-in 17-ci Zirvə görüşü çərçivəsində tarixi səfəri çoxtərəfli münasibətlərimizin, müttəfiqlik əlaqələrimizin bütün spektrinin ətraflı müzakirəsi, əsas istiqamətlər üzrə fikir mübadilələrinin aparılması, böyük iqtisadi, innovativ perspektivlər vəd edən sənədlərin imzalanması ilə yadda qaldı. Bu səfər, hər şeydən əvvəl, böyük imkanlarımızın olduğu ticarət, sənaye, elm, peşə təhsili, ali təhsil, sosial müdafiə və digər sahələrdə əməkdaşlıqlarımıza daha geniş qapılar açdı, Sumqayıt şəhəri ilə Daşkənd vilayəti, Qəbələ şəhəri ilə Nəvai şəhəri qardaşlaşdılar.

Səhifə ⇨ 3




# İƏT-in 17-ci Zirvə görüşü:
# Beynəlxalq səviyyədə artan nüfuz, göstərilən etimad
## Regionun siyasi, iqtisadi nəbzi Xankəndidə döyünür

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın sülhə, təhlükəsiz yaşayışa, faydalı əməkdaşlığa xidmət edən xarici siyasəti onun aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığı üçün mühüm perspektivlər açır. Bu xüsusda İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) çərçivəsində respublikamızın qurduğu münasibətlər ölkənin həm regional, həm də beynəlxalq siyasi, iqtisadi sistemdə tutduğu fəal mövqeyini aydın şəkildə isbatlayır. 1992-ci ildən ECO-nun üzvü olan Azərbaycan təşkilat daxilində həyata keçirilən təşəbbüslərdə aktiv rol oynayır, üzv dövlətlərlə iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ekologiya sahələrində əməkdaşlığın inkişafına töhfələr verir. ECO-nun 2006-cı ilin mayında və 2012-ci ilin oktyabrında IX və XII Zirvə görüşlərinə uğurla ev sahibliyi etməsi də respublikamızın bu platformadakı yeri və rolunun mühüm göstəricisidir. İyulun 3-4-də İƏT-in sayca 17-ci Zirvə görüşünün məhz tarixi Oğuz torpağı, qədim yurdumuz Xankəndidə reallaşdırılması isə özündə dərin siyasi məzmun, diplomatik nüfuz və mədəni, iqtisadi məna daşıyır.

Bu mötəbər Zirvə görüşünün Azərbaycanda təşkili hazırkı mürəkkəb geosiyasi vəziyyətdə ölkəmizin mövqeyinə dəstəyin ifadəsi olmaqla respublikamızın həm qurum çərçivəsində, həm də bu quruma üzv olan digər 9 dövlətlə münasibətlərində artan rolunun və fəallığının təsdiqidir. Eyni zamanda sözügedən tədbir ölkəmizin İƏT daxilində təşəbbüskar tərəfdaş olduğunu, regional əməkdaşlığa verdiyi töhfələrin yüksək qiymətləndirildiyini göstərir. Digər və ən vacib məqam isə, sözsüz ki, bayaq da qeyd etdiyimiz kimi, Zirvə görüşünün məhz Xankəndidə reallaşmasıdır. Zaman və məkan baxımından bu uzlaşma, təbii olaraq, yaddaşlarımızda hələ 44 günlük Vətən müharibəsində Prezident İlham Əliyevin dediyi və xalqımızın sonsuz güvən və inam yerinə çevrilən dəyərli fikirlər canlanır: ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində".*** Eyni zamanda bu fikirlərin davamı kimi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci ildə Şuşaya səfəri zamanı Prezident İlham Əliyevlə dialoqu bir daha gündəmə gəlir. Dövlət başçıları arasında maraqlı dialoq zamanı iki dağın arasından görünən Xankəndi şəhərini göstərmələrini, Türkiyə Prezidentinin "Hotel oradadırmı?" sualına cavab olaraq ölkə başçımızın ***"Xeyr, xeyr. Amma orada da olacaq"***, – deməsini xatırlayırıq. Bəli, həmin hadisədən cəmi iki il sonra sözü imzası qədər dəyərli olan liderin rəhbərliyi ilə Xankəndi şəhəri də separatizmdən, işğalçılardan azad olundu və bu ilin əvvəlində qədim yurdumuzda "Bulud" hoteli istifadəyə verildi. İndi isə dünyada kifayət qədər hörmətə, nüfuza sahib liderlərin, ekspertlərin siyasi, iqtisadi maraqları burada kəsişir,beynəlxalq ictimaiyyətin diqqəti məhz bu torpağa – Xankəndiyə fokuslanıb, bu şəhərdəfaydalı əməkdaşlıqların yeni perspektivləri açılır. Zirvə görüşünün Xankəndidə keçirilməsi, birinci növbədə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpasının bir daha qəti şəkildə dünyaya bəyan edilməsi, o cümlədən cəfəng fikirlərlə yaşayan anti-Azərbaycan qüvvələrin diqqətinə ***"Əgər kimsə bundan sonra bizə qarşı hansısa əsassız ittiham irəli sürmək istəsə, o, cavabını alacaq, necə ki bu günə qədər alıb"*** mühüm mesajının çatdırılmasına xidmət edir. Eyni zamanda bu addım Qarabağda uğurla icra olunan Böyük Qayıdış Proqramının sanballı təqdimatı missiyasını daşıyır, iqtisadi əlaqələrin inkişafı üçün azad olunan torpaqlarda yeni investisiya imkanlarının ortaya çıxması, turizm potensialının gücləndirilməsi yönündə mühüm təşəbbüsdür. İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşündə çıxışı zamanı Prezident İlham Əliyev həm 30 illik işğal dönəmində erməni vəhşiliyinin yaratdığı tükürpədən mənzərələri şərh etdi, həm də 2020-ci ildən bəri yenidən qurulan Qarabağda aparılan Böyük Qayıdış siyasətinə diqqəti çəkərək bu Zirvənin təşkilinin məkan baxımından xüsusi məna daşıdığını vurğuladı. Sitat: ***"Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var. Ermənistan işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilmişdir. 2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclasını, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşünü qeyd etmək istərdim".*** ECO-nun Xankəndi zirvəsində Ermənistandan deportasiya olunmuş qərbi azərbaycanlıların hüquqlarının təmin olunmasının böyük əhəmiyyət kəsb etdiyini vurğulayan ölkə başçımız keçən ay İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilmiş Nazirlər Şurasında Ermənistandan zorla didərgin salınmış azərbaycanlıların qayıdış hüququna dəstək ifadə edən qətnamənin bütün 57 üzv ölkənin yekdil qərarı ilə qəbul olunmasını yüksək qiymətləndirdi. "Nazirlər Şurasının yekunlarına dair "İstanbul Bəyannaməsi"ndə indiki Ermənistan ərazisindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququ təsdiqlənir və Ermənistanın Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır", – deyən respublikamızın rəhbəri qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylərin bundan sonra da davam etdiriləcəyini qəti şəkildə bildirdi.

İƏT-Azərbaycan əməkdaşlığı, əlaqələri barədə onu diqqətə çəkmək olar ki, təşkilat hər zaman respublikamızın suverenliyini və ərazi bütövlüyünü dəstəkləyib və üzv dövlətlər hələ mövcud Qarabağ münaqişəsi zamanı Ermənistandan öz qoşunlarını işğal etdiyi ərazilərdən çıxarmağı, BMT Təhlükəsizlik Şurasının 822-ci qətnaməsini yerinə yetirməyi tələb edib. Bu xüsusda onu da qeyd etmək yerinə düşər ki, 2011-ci ildə məhz təşkilata üzv ölkələrin fəal iştirakı və dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib. 44 günlük Vətən müharibəsi dövründə respublikamız ECO-nun lazımi dəstəyini alıb və bu dəstək özünüişğaldan azad olunmuş torpaqlarda aparılan böyük quruculuq, bərpa işlərində də aydın şəkildə göstərir. Üzv ölkələrin sıx mədəni əlaqələri, fəal siyasi münasibətləri özünü iqtisadi sahədə birgə layihələrin icrasında, ortaq təşəbbüslərin reallaşmasında da təsdiqləyir. Azərbaycanın həm təşkilat vasitəsilə, həm də ayrılıqda İƏT dövlətləri ilə qurduğu iqtisadi əlaqələr ticarət dövriyyəsinin artımına, idxal-ixrac prosesinin gücləndirilməsinə təsir edir. Bir faktı qeyd etmək yerinə düşər ki, ötən il İƏT-ə üzv dövlətlərin Azərbaycan ilə birgə xarici ticarət dövriyyəsi 7,95 milyard ABŞ dolları təşkil edib. Belə ki, ölkəmizin İƏT ölkələri ilə xarici ticarətində Türkiyə 77,1, İran 8,1, Qazaxıstan 5,9, Türkmənistan 4,8, Özbəkistan 3,2, Qırğızıstan 0,5, Pakistan 0,3, Tacikistan 0,09 və Əfqanıstanın 0,006 faiz paya sahib olub. Respublikamız ticarət, enerji, nəqliyyat və logistika sahələrində irəli sürdüyü layihələrlə İƏT daxilində əməkdaşlığın dərinləşdirilməsinə ciddi töhfələr verir, müxtəlif sahələr üzrə yeni əlaqələrin qurulmasına imkanlar açır. Bakı-Tbilisi-Qars dəmir yolu, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) və Cənub Qaz Dəhlizi kimi nəhəng layihələr bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın yerləşdiyi coğrafi mövqe, mövcud potensialdan səmərəli istifadə onun Asiya ilə Avropa arasında mühüm nəqliyyat qovşağına, Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısına çevrilməsinə gətirib çıxarıb. Bu da, təbii ki, birmənalı şəkildə sözügedən qitələrdə, regionda yerləşən İƏT ölkələri ilə əlaqələrin gücləndirilməsinə də təsirsiz ötüşmür, həmin dövlətlər respublikamızın yaratdığı imkanlardan faydalanırlar.Xankəndi Zirvəsində Prezident İlham Əliyevin dediyi kimi: ***"Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir və müxtəlif qaz boru kəmərləri vasitəsilə 12 ölkəyə təbii qaz ixrac edir. Biz bu göstəriciyə görə dünyada ön sıralardayıq. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir və ECO-ya üzv ölkələrin əksəriyyəti bu dəhlizlərdən istifadə edir".***

Ümumilikdə, İƏT tarixində üç Zirvə görüşünün, eyni zamanda ötən il ilk dəfə ECO məkanında COP29 kimi nəhəng konfransın Azərbaycanda təşkili, o cümlədən 2026-cı il üçün Şuşa şəhərinin "ECO-nun Turizm paytaxtı" elan edilməsi respublikamıza bu beynəlxalq təşkilat tərəfindən edilən hörmət və ehtiramın, etibarın bariz göstəriciləridir. Bu gün 10 ölkənin dünyada söz sahibi olan liderləri, rəhbər şəxsləri, nümayəndə heyətləri işğaldan azad olunmuş Qarabağ torpağına üz tutaraq regionun siyasi, iqtisadi mənzərəsinə aydınlıq gətirir, həmrəylik çağırışları edirlər. Başqa sözlə, regionun siyasi nəbzi Xankəndidə, Şuşada, Ağdamda, Laçında döyünür, iqtisadi mənzərəsi Qarabağdan görünür. Və bugünkü reallıq onu qəti şəkildə deyir ki, Prezident İlham Əliyev diplomatiyası alternativsizdir, Azərbaycanla hesablaşmayan gec-tez peşman olur və olacaq da. ***"Azərbaycan xalqı və dövləti işğalla heç vaxt barışmamışdır. Dəfələrlə Ermənistana və onun arxasında duran dövlətlərə bildirirdik ki, əgər Ermənistan işğal ilə çıxmasa, biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa edəcəyik. Əfsuslar olsun ki, Ermənistan və onun havadarları bizim bu xəbərdarlığımızı ciddi qəbul etməyiblər. Nəticədə, peşman olublar"*** – sitatın sonu!

**Nail ƏSGƏROV**



# Bakı görüşü: Azərbaycan-Özbəkistan münasibətlərinin müttəfiqlik xarakterinin təsdiqi

(əvvəli 1-ci səhifədə)

Eyni zamanda prezidentlər siyasi dialoqu möhkəmləndirmək, çoxtərəfli platformalarda qarşılıqlı dəstək göstərmək, parlamentlər, hökumətlər, sahələr, nazirliklər səviyyəsində fəal təmasları davam etdirməklə bağlı yeni imkanları dəyərləndirdilər, mövcud münasibətlərdən məmnunluq ifadə olundu. Ən önəmlisi isə ortaya qoyulan siyasi iradə sayəsində ötən il qurulan Azərbaycan-Özbəkistan siyasi müttəfiqliyi daha da möhkəmləndirildi, bu xüsusda "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"nin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol xəritəsi" imzalandı.

Dünya praktikasına baxsaq, görərik ki, bəzən dövlətlər arasında müttəfiqlik səviyyəsinə çatmaq üçün 10-20 illik tərəfdaşlıq tələb olunur. Amma Azərbaycan Prezidentinin apardığı uğurlu diplomatiyanın təqdiredici reallığıdır ki, cəmi 3 il əvvəl, 2022-ci ildə Özbəkistana dövlət səfəri və sonrakı dinamika ötən il strateji müttəfiqliyin əldə olunmasına şərait yaratdı. Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, bu gün Azərbaycan 3 ölkəylə siyasi müttəfiqdir, ancaq əvvəlki ikisindən fərqli olaraq Özbəkistanla bu müttəfiqliyə bəyanatla deyil, daha da irəli gedilərək müqavilə ilə imza atılıb. İyulun 2-də Prezident İlham Əliyev təkbətək görüşün, Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclasının ardından mətbuata bəyanatında ilk olaraq məhz bu məqama diqqəti çəkdi və ölkələrarası müttəfiqlik müqaviləsinin münasibətlər tarixində ən yüksək dövlət sənədi olduğunu vurğuladı. Sitat: ***"Keçən il Daşkənddə Müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu, istənilən ölkələrin münasibətlərində ən yüksək və əhəmiyyətli sənəddir. Biz artıq bir ildir ki, rəsmi müttəfiqik və bunu beynəlxalq arenada fəal qarşılıqlı fəaliyyətlə, qarşılıqlı dəstəklə, həmçinin bir çox sahədə həyata keçirdiyimiz konkret plan və layihələrlə nümayiş etdiririk".***

Öz növbəsində, Özbəkistan Prezidenti də bu müttəfiqliyin diplomatiya və siyasətdə mühüm nailiyyət olduğunu vurğuladı, ölkələrarası iqtisadiyyatın, investisiyanın artımını Prezident İlham Əliyevin həyata keçirdiyi yorulmaz fəaliyyətin bəhrəsi kimi dəyərləndirdi: *"İqtisadiyyat artır, investisiyalar artır və bütün bunlar Azərbaycan Prezidenti, dostum və qardaşım İlham Heydər oğlunun gündəlik, yorulmaz əməyinin bəhrələridir. Azərbaycanda həyata keçirilən bir çox işləri öyrənir, təhlil edir və bu təcrübəni mənimsəyirik".*

Böyük tarixi-siyasi əhəmiyyəti, ağır iqtisadi çəkisi ilə seçilən, yeni əməkdaşlıq perspektivləri vəd edən müttəfiqlik əlaqələrinə uzanan yolda atılan addımlar Özbəkistanın Azərbaycan üçün nə qədər önəmli rola malik olduğunu göstərdi. Bəli, qardaş ölkə Türkiyəylə əlaqələrimizdə olduğu kimi, bu qədim türk köklü dövlətlə də münasibətlərimizdə "Dost dar gündə tanınar" tandemi mühüm amildir fikrini əmin şəkildə irəli sürə bilərik. Belə ki, Özbəkistanın 30 illik işğal zamanı Ermənistanla diplomatik münasibətləri qurmaması, bu illər ərzində Ermənistanda səfirliyini açmaması, həmçinin Ermənistanın da Daşkənddə səfirlik açmasına icazə verməməsi Azərbaycana olan dost sevgisinin, qardaş hörmətinin əlaməti kimi dəyərlidir, qiymətlidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT)

> **Prezident İlham ƏLİYEV:**
>
> ***"Bu gün Özbəkistan və Azərbaycan münasibətlərinin tarixində əlamətdar gündür. Özbəkistan Prezidentinin dövlət səfəri layiqincə, qardaşlıq və qarşılıqlı anlaşma ab-havasında keçir. Bu gün biz həm ikitərəfli görüş, həm də Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrini müzakirə etdik, münasibətlərimizin strateji, müttəfiqlik xarakterini bir daha təsdiqlədik."***

qoşunlarının bölgəyə yerləşdirilməsi ilə bağlı çağırış edəndə ilk etiraz edən dövlətlərdən biri olan Özbəkistan müharibədən sonra Azərbaycanın azad olunan torpaqlarda apardığı quruculuq strategiyasına da töhfələr verir. Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik orta məktəbin tikilməsi, həmçinin Özbəkistanın sərmayəsi sayəsində Xankəndidə tikiş fabrikinin istifadəyə verilməsi də məhz qardaş dəstəyinin göstəriciləridir. İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olmaları ölkələrimiz arasında uğurlu əməkdaşlıq barədə dünyaya ünvanlanan mühüm mesaj təsiri bağışladı. Əminliklə demək olar ki, bu tikiş fabriki ölkəmizdə yüngül sənayenin inkişafı üçün yeni imkanlar yaratmaqla yanaşı, Azərbaycanla Özbəkistan arasında ənənəvi dostluq və iqtisadi tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edir və yaxın gələcəkdə bu inkişafda yeni perspektivlər açacaq.

Özbəkistan liderinin tarixi səfəri həm də ölkələr arasındakı diplomatik əlaqələrin 30 illiyinə mühüm töhfə kimi də dəyərləndirilməlidir. Belə ki, səfər çərçivəsində Özbəkistanın Azərbaycandakı səfirliyinin Bakıda yeni binasının açılışı oldu. Bu bina həm də illər öncə diplomatik birliyə, bərabərliyə xidmət məramı ilə atılan addımın uğurlu tamamı, mübarək arzunun reallaşmasıdır. Belə ki, vaxtilə Ümummilli Liderimiz Heydər Əliyevin ayırdığı, məqsədəuyğun bildiyi ərazidə səfirlik binasının inşası məhz Ulu Öndər ideyalarına sədaqətin ali ifadəsi olmaqla Azərbaycan-Özbəkistan əlaqələrinin təməlinin möhkəmliyindən xəbər verir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bu yer Heydər Əlirza oğlu tərəfindən ayrılıb, şəhərin mərkəzində, böyük dövlətlərin səfirliklərinin yerləşdiyi ərazidə, eyni zonada, amma ən azı iki onillik, yox, bir qədər az müddətdə, sadəcə, orada boş qalıb, düzünü deyim ki, bu yer üçün çoxlu "ovçular" olub. Mənə dəfələrlə dedilər ki, görürsünüz, Özbəkistan səfirlik tikmir, yer yaxşıdır, layihə budur. Deyirəm, bütün layihələri yığışdırın, atam bu yeri qardaş ölkəyə verib. Qərar veriləndə, əminəm ki, bu bina tikiləcək və Şavkat Miromonoviç bundan xəbər tutan kimi, biz aktiv şəkildə qarşılıqlı fəaliyyətə başlayanda qərar qəbul etdi və indi gözəl bina tikilib".***

Prezident Şavkat Mirziyoyevin Azərbaycana səfəri həm də Bakıda "Özbəkistan" parkının təməlini qoyulması ilə əlamətdar yaddaqalan oldu. "Bakı Ağ Şəhər"də salınacaq bu park iki dövlət və xalqlar arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzinin daşıyıcısı, eyni zamanda mədəni əlaqələrin inkişafına mühüm töhfədir. Xarici turistlərin böyük marağına səbəb olacaq bu park dünyaya Azərbaycan-Özbəkistan münasibətləri barədə zəngin təəssürat aşılamaq baxımından dəyərli əyani mənbə rolunu oynayacaq.

Ümumilikdə, Özbəkistan Prezidentinin Azərbaycana növbəti səfəri, səfər çərçivəsində həm Bakıda, həm də Ağdamda, Xankəndidə keçirilən görüşlərdən, səmimi söhbətlərdən və səfirlik binasının açılışından, parkın təməlqoymasından, imzalanan sənədlərdən gələn nəticə budur ki, bu sayədə müttəfiqliyin, indiyədək reallaşdırılan layihələrin nə dərəcədə önəmli olduğu isbat edilməklə yeni layihələrin icrası, qarşıdan gələn dövrdə iqtisadi, ticarət və sərmayə əlaqələrinin daha da güclənməsi üçün mühüm perspektivlər açıldı. Ən əsas rəğbət olunası amil isə odur ki, bir sıra dövlətlərin 10-15 ilə əldə etdiyi nailiyyətə Azərbaycan və Özbəkistan əsl siyasi iradə, qətiyyətli mövqe göstərməklə cəmi 2-3 il ərzində çataraq müttəfiq respublikalara çevriliblər və bu gün birgə layihələrlə bu müttəfiqliyi gücləndirərək irəli aparmaqdadırlar. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Bu gün Özbəkistan və Azərbaycan münasibətlərinin tarixində əlamətdar gündür. Özbəkistan Prezidentinin dövlət səfəri layiqincə, qardaşlıq və qarşılıqlı anlaşma ab-havasında keçir. Bu gün biz həm ikitərəfli görüş, həm də Dövlətlərarası Şuranın iclası çərçivəsində ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinin geniş spektrini müzakirə etdik, münasibətlərimizin strateji, müttəfiqlik xarakterini bir daha təsdiqlədik".***

**"Şərq qapısı"**

# Naxçıvanda *"Təbii sərvətlərin istifadəsi və məsuliyyətli investisiya üzrə arbitraj simulyasiyası"* layihəsi həyata keçirilib

İyunun 26-da Naxçıvan şəhərində "Təbii sərvətlərin istifadəsi və məsuliyyətli investisiya üzrə arbitraj simulyasiyası" layihəsinin açılış tədbiri keçirilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.




Heydər Əliyev Muzeyində olan qonaqlar Ulu Öndərin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olub, muzeyin qarşısında xatirə fotosu çəkdiriblər.









"Naxçıvan Palas"da keçirilən açılış tədbirində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli tədbirdə çıxış edərək bildirib ki, arbitrajın inkişafı yalnız hüquqi baxımdan deyil, həm də iqtisadi və sosial müstəvidə mühüm əhəmiyyət daşıyır. Gənclərin iştirakı ilə keçirilən simulyasiyanın məhz bu prinsiplərin öyrədilməsi və tətbiqi baxımından çox dəyərli olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ötən il COP29 – BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflər Konfransının 29-cu sessiyasına uğurla ev sahibliyi edən Azərbaycanın iqlim dəyişikliklərinə qarşı qətiyyətli mövqeyi və məsuliyyətli dövlət imici bir daha təsdiq olundu.

Səlahiyyətli nümayəndənin müavini "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda ətraf mühitin mühafizəsi və alternativ enerji mənbələrinin inkişafı məsələlərinin əsas hədəflərdən olduğunu diqqətə çatdırıb, günəş enerjisi layihələri, meşə fondunun artırılması, su ehtiyatlarının bərpası təşəbbüslərini bu istiqamətdə atılan əhəmiyyətli addım kimi qiymətləndirib.



Samir Seyidəhmədli gələcəyin hüquqşünasları olan tələbələrə müraciətində hüquqi biliklə ekoloji və sosial məsuliyyəti birləşdirə bilməyin, təkcə mütəxəssis deyil, həm də vicdanlı və məsuliyyətli vətəndaş kimi yetişməyin onların üzərinə düşən mühüm vəzifə olduğunu qeyd edib.

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini Abiddin Hüseynov qeyd edib ki, 30 illik dövrdə Azərbaycanın təbii sərvətləri də işğal altında saxlanılıb, qeyri-qanuni istismar olunub. Bu həm də xalqımızın öz təbii sərvətləri üzərində suveren hüququnun pozulması idi. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qələbəyə imza atması tarixi ədaləti bərpa etməklə həm də işğal altında olan torpaqlarımız üzərində suveren hüquqlarımızın bərpasını təmin etdi.

Bu proseslər, habelə ölkəmizdə mübahisələrin məhkəmədən kənar həlli yollarının inkişafı ilə bağlı aparılan islahatlar arbitraj institutunun inkişafını labüd etmişdir. Bu inkişafın təmin olunması üçün isə ixtisaslı və peşəkar kadrlara ehtiyac var.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağında hüquq sahəsində kadrların yetişdirilməsi məsələlərindən danışıb. Qeyd edib ki, hüquqşünaslıq sahəsində ixtisaslar əmək bazarına uyğun müəyyən edilir.

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Hüseyn Səfərov çıxışında qeyd edib ki, Naxçıvanda təşkil olunan bu təşəbbüs, sadəcə, bir simulyasiya tədbiri deyil, həmçinin hüquqi innovasiyaların, gənclərin inkişafına verilən önəmin və ədliyyə sisteminin gələcəyə yönəlmiş baxışının göstəricisidir.

Açılış tədbirinin sonunda xatirə fotosu çəkdirilib.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, Gənclər Fondu, Azərbaycan Arbitraj Assosiasiyası və "Ədliyyə Könüllüləri" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən layihə 26-29 iyun tarixləri əhatə edib.

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin təsdiqi ilə bağlı qanun layihəsi Milli Məclisdə ikinci oxunuşda müzakirə olunub



Azərbaycan Respublikası Milli Məclisinin iyulun 4-də keçirilən iclasında "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb və qəbul olunub.

Qeyd edək ki, Milli Məclisin iclasında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli və Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində daimi nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov da iştirak ediblər.

## Ali Məclisin növbədənkənar sessiyası başa çatıb



İyunun 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (üçüncü oxunuş) müzakirəsi daxil edilib.



Gündəlik təsdiq olunduqdan sonra Ali Məclis sədrinin birinci müavini qeyd edib ki, qanun layihəsi 21 iyun 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilib. Daxili Nizamnaməyə əsasən İqtisadi siyasət komitəsi tərəfindən üçüncü oxunuşa hazırlanmış qanun layihəsi baxılması üçün Ali Məclisin iclasının gündəliyinə salınıb.

Qanun layihəsi ilə əlaqədar Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsə qoyularaq qəbul edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Ali Məclisin növbədənkənar sessiyası öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda Azərbaycan polisinin yaranmasının 107-ci ildönümü qeyd edilib







Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-mayor Süleyman Neymətov və nazirliyin kollektivi Azərbaycan polisinin yaranmasının 107-ci ildönümü münasibətilə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə əklil qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Kollektiv Şəhidlər xiyabanında da olub, torpaqlarımızın ərazi bütövlüyü və dövlətimizin suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini hörmətlə anıblar.

Muxtar respublikanın rayonlarında da Polis günü münasibətilə tədbirlər keçirilib. Tədbirlərdə rayon icra hakimiyyətlərinin, polis idarə və şöbələrinin rəhbər heyətləri və əməkdaşları, eləcə də veteranlar iştirak ediblər. İştirakçılar Ulu Öndər Heydər Əliyevin rayon mərkəzlərində ucaldılmış abidələrini ziyarət edib, önünə gül dəstələri düzüblər. Həmçinin Şəhidlər xiyabanları və abidə kompleksləri də ziyarət edilib, xalqımızın azadlığı uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

Çıxış edənlər Azərbaycan polisinin xalqın inam və güvənc yeri olduğunu bildirib, təbriklərini çatdırıblar.

Tədbirlərdə xidmətdə fərqlənən polis əməkdaşlarına fəxri diplomlar təqdim olunub.

# Polis – gecənin və gündüzün qoruyucusu

Bizi səssizcə, amma qətiyyətlə qoruyan, yolumuza təhlükəsizlik, yaşadığımız mühitə əminlik bəxş edən bir qüvvə var – bu, polisdir.

Polis nəinki qanun keşikçisidir, eyni zamanda dost, çətin anda qapısını döyəcəyimiz, ehtiyacda üz tutacağımız ilk ünvandır. Onların nə gecəsi var, nə də gündüzü. Bu peşə sahibləri nə qışın ayazından, nə də yayın istisindən çəkinirlər. Daim ayıq-sayıqdırlar xalqı və dövləti üçün.

Ümummilli Lider Heydər Əliyev demişdir: ***"Azərbaycan polisi xalqın təhlükəsizliyinin, dövlətin əmin-amanlığının qarantıdır".***

Bu fikir bu gün də aktuallığını qoruyur, xüsusən də Naxçıvanda. Son üç ildə Naxçıvan Muxtar Respublikasında daxili işlər orqanlarının fəaliyyəti yeni bir mərhələyə qədəm qoyub. Struktur islahatları, texniki təchizatın yenilənməsi, gənc kadrların işə cəlb olunması və etik davranış prinsiplərinə üstünlük verilməsi bu sahədə ciddi keyfiyyət dəyişikliklərinə səbəb olub.

Yol təhlükəsizliyindən tutmuş ictimai asayişə qədər hər sahədə müşahidə olunan nizam-intizam, çeviklik və operativlik vətəndaşlarda daxili işlər orqanlarına olan inamı əhəmiyyətli dərəcədə artırıb. İnsanlar artıq polisə, sadəcə, nəzarət orqanı kimi deyil, eyni zamanda onların hüquqlarını qoruyan, güvən verən bir qurum kimi baxırlar.

Naxçıvanda təhlükəsiz mühitin formalaşması, ailələrin, uşaqların, yaşlıların özlərini rahat hiss etməsi, eləcə də ictimai sabitliyin qorunması bu peşəyə olan hörməti daha da yüksəldir. Bu gün daxili işlər orqanlarının fəaliyyəti obyektiv olaraq yüksək dəyərləndirilir. Onların gündəlik fəaliyyəti, məsuliyyəti və fədakarlığı sabitliyin əsasını təşkil edən görünməz, amma vacib qüvvədir.









Bu əlamətdar gündə Vətən və xalq yolunda canını fəda etmiş bütün şəhid polis əməkdaşlarını da dərin ehtiramla anırıq. Onların fədakarlığı, göstərdikləri qəhrəmanlıq heç vaxt unudulmayacaq. Şəhid polislərimizin xatirəsi hər zaman qəlbimizdə yaşayacaq.

"Şərq qapısı" kollektivi olaraq bütün polis əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edirik!

Sizə güc, səbir və uğurlar arzulayırıq!

Polisin gücü dövlətin dayağı, xalqın təhlükəsizliyinin təminatıdır.

Naxçıvanda asayişin yüksək səviyyədə qorunması məhz bu güclü və məsuliyyətli xidmətin nəticəsidir.

**Bayramınız mübarək!**

# Heydər Əliyev prospektində avtomobillərin saxlanılması qadağan olunub





Naxçıvan şəhərində nəqliyyat vasitələrinin sərbəst və maneəsiz şəkildə hərəkətini təmin etmək məqsədilə şəhərin mərkəz hissəsini təşkil edən Heydər Əliyev prospekti boyunca hər iki istiqamətdə avtomobillərin saxlanılması qadağan olunub.

Bu barədə Dövlət Yol Polisi İdarəsinin əməkdaşı, polis mayoru Ayaz İsmayılov jurnalistlərə açıqlamasında bildirib: "Naxçıvan şəhərində hərəkət sıxlığının artması səbəbindən yol hərəkəti təhlükəsizliyinin təmin olunması, xüsusilə də avtomobillərin rahat və fasiləsiz hərəkətini təmin etmək məqsədilə Naxçıvan Şəhəri, Heydər Əliyev prospektində dayanma-durma qadağandır nişanlarının quraşdırılması prosesinə başlanılıb".

Eyni zamanda Ayaz İsmayılov onu da diqqətə çatdırıb ki, yol-nəqliyyat hadisələrinin baş verməsinin əsas səbəblərindən biri də dayanma-durma qaydalarının pozulmasıdır: "Ona görə də bir daha sürücülərdən tələbimiz, eyni zamanda xahişimiz ondan ibarətdir ki dayanma-durma qaydalarına ciddi şəkildə əməl etsinlər".

# Prezident İlham Əliyevin təşəbbüsü – Laçından regiona və dünyaya mesaj




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə iyulun 2-də Laçın şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) “Dayanıqlı və iqlimə davamlı gələcəyin qurulmasında qadınların rolunun artırılması” mövzusunda ilk Qadınlar Forumu keçirildi. İƏT həftəsi çərçivəsində baş tutan bu tədbir həm Azərbaycanın beynəlxalq platformalarda təşəbbüskar mövqeyini, həm də qadınların sosial-iqtisadi həyatda roluna verilən yüksək qiyməti əyani şəkildə nümayiş etdirdi.

Tarixi və simvolik əhəmiyyəti ilə seçilən bu forum azad olunmuş Qarabağ torpağında – Laçında təşkil olundu. Bu məkanın seçilməsi Azərbaycan dövlətinin işğaldan azad edilmiş ərazilərdə sülh, dirçəliş və inklüziv cəmiyyət quruculuğu istiqamətində həyata keçirdiyi genişmiqyaslı siyasətin bariz göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu forum regionda qadınların dayanıqlı inkişaf sahəsində liderlik potensialının ortaya qoyulmasına və qlobal çağırışlara cavab verən müasir siyasətlərin təşviqinə xidmət etdi. Prezidentin siyasi iradəsi sayəsində işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən irimiqyaslı quruculuq və reinteqrasiya proqramları, bu torpaqlarda qadınların fəal iştirakını, iqtisadi və ictimai layihələrdə öncül mövqe tutmalarını stimullaşdırır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət qadının iqtisadi müstəqilliyinin təmin olunması, sosial rifahının gücləndirilməsi və qərar qəbuletmə proseslərində iştirakının artırılmasını prioritet hesab edir. Bu, Azərbaycanın beynəlxalq mövqelərində də özünü göstərir – qadın məsələləri üzrə çoxtərəfli platformalarda ölkəmiz fəal təşəbbüslərlə çıxış edir, müsbət təcrübəsini bölüşməyə hazır olduğunu nümayiş etdirir.

### *Qadınlara verilən dəyər və ictimai məsuliyyət*

Forumun açılış mərasimində çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova tədbirin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında keçirilməsini tarixi hadisə kimi dəyərləndirdi. O, Azərbaycan qadınının ictimai-siyasi həyatda fəallığını vurğulayaraq bildirdi ki, ölkəmizdə qadın sahibkarlığının inkişafı üçün güzəştli maliyyə alətləri, təlim proqramları və sosial layihələr həyata keçirilir.

Komitə sədri qeyd etdi ki, qadınların təhsilə, elmə və texnologiyalara çıxış imkanlarının artırılması istiqamətində də mühüm nəticələr əldə olunub. Gənc qadın alimlərin, mühəndislərin, müəllimlərin və sahibkarların cəmiyyətin lokomotivinə çevrilməsi bu siyasətin uğurudur.

### *Panel müzakirələrdə qlobal çıxış yolları*

BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Vladanka Andreevanın moderatorluğu ilə keçirilən panel sessiyada müxtəlif ölkə və beynəlxalq təşkilat nümayəndələri iqlim dəyişikliklərinə qarşı dayanıqlılıqda qadınların rolu mövzusunu müzakirə etdilər. Sessiyada Türkiyənin Ailə və sosial xidmətlər nazirinin müavini Ləman Yenigün, Qazaxıstan Parlamentinin üzvü Juldız Süleymenova, Təhsilin İnkişafı Fondunun sədri Elnur Nəsibov, İƏT Təhsil İnstitutunun rəhbəri prof. Mehmet Akif Kireççi və digər ekspertlər çıxış etdilər.

Panel iştirakçıları vurğuladılar ki, iqlim dəyişikliklərinə qarşı mübarizədə qadınların və qızların səlahiyyətləndirilməsi əsas şərtdir. Qadınların təhsil, maliyyə resursları və qərarvermə proseslərinə bərabər çıxışını təmin edən sistemli islahatlara ehtiyac olduğu qeyd edildi.

### *“COP29 Bakı təşəbbüsü” və qlobal tərəfdaşlıq çağırışı*

Sessiyada, həmçinin vurğulandı ki, BMT-nin “Gələcək üçün Paktı”, COP29-un nəticələri və İnkişaf üçün Maliyyələşdirmə Konfransı çərçivəsində irəli sürülən məqsədlər, qadınların bu sahələrdə rolunun artırılması üçün ciddi zəmin yaradır. Panelin sonunda üzv dövlətlərə, beynəlxalq təşkilatlara, akademik qurumlara və vətəndaş cəmiyyətinə qadınların liderlik imkanlarının genişləndirilməsi istiqamətində birgə əməkdaşlıq çağırışı edildi.

### *Hacı Zeynalabdin Tağıyev irsindən ilhamlanan forum*

Forumun fəlsəfi ruhuna ilham verən şəxslərdən biri böyük xeyriyyəçi və maarifçi Hacı Zeynalabdin Tağıyev olub. Müsəlman şərqində ilk dünyəvi qız məktəbini maliyyələşdirən bu şəxsiyyətin “Qızı oxutsan, bir ailəni savadlandırmış olarsan” fikri bu gün də öz aktuallığını qoruyur. Forumun əsas mesajlarından biri də məhz budur: təhsilli qız təhsilli ana, təhsilli ailə və təhsilli cəmiyyət deməkdir.






### *Azərbaycan qadını – tarix və zamanı birləşdirən güc*

Azərbaycan qadını tarixən mütərəqqi mövqeyə malik olmuşdur. Hələ 1919-cu ildə Şərqdə ilk dəfə seçmək və seçilmək hüququ qazanan qadınlarımız bu gün sosial, siyasi, iqtisadi həyatın bütün sahələrində fəal iştirak edirlər. Ulu Öndər Heydər Əliyev ***“Cəmiyyətin inkişafını qadınsız təsəvvür etmək olmaz”***, – deyərək bu siyasətin təməlini qoymuşdur. Bu siyasəti bu gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva böyük uğurla davam etdirir.

### *Yeni dövrün yeni hədəfləri – İƏT 2026-2035 strategiyası*

Forumun nəticələri göstərdi ki, qadınların dayanıqlı inkişafda rolu yalnız milli deyil, həm də regional strateji prioritetdir. Bu forum həm də 2025-ci ildə başa çatacaq İƏT-in mövcud baxış sənədinin davamı kimi, 2026-2035-ci illəri əhatə edəcək yeni inkişaf strategiyasının formalaşdırılmasında əsas istinad nöqtələrindən biri olacaq.

### *Nəticə: Laçından qlobal həmrəyliyə*

Qadınların iqtisadi, sosial və institusional inkişafda fəal rol alması dayanıqlı gələcəyin əsas təminatçısıdır. Laçında keçirilən bu forum yalnız bir tədbir deyil, o, azad olunmuş torpaqlarımızdan başlayan bir çağırışdır. Bu çağırış qadınların təhsildə, innovasiyada, "yaşıl iqtisadiyyat"da və iqlim tədbirlərində aparıcı rol oynadığı daha ədalətli, bərabər və davamlı gələcək üçündür.

Azərbaycan dövləti bu istiqamətdə siyasi iradəsini, praktiki addımlarını və regional əməkdaşlığa verdiyi töhfəni növbəti dəfə nümayiş etdirdi. İƏT Qadınlar Forumu bunun bariz nümunəsidir – həm tarixin, həm də gələcəyin səsinə çevrilən bir təşəbbüs…

**✍ Sara ƏZİMOVA**
**“Şərq qapısı” qəzetinin baş redaktoru**
**Naxçıvan-Bakı-Laçın**



## Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti Laçın şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Qadınlar Forumunda iştirak edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) “Davamlı və iqlimə dayanıqlı gələcəyin qurulmasında qadınların rolunun artırılması” mövzusunda Qadınlar Forumu Laçın şəhərində keçirilib. Forumun əsas məqsədi qadınların insan inkişafının bütün sahələrində imkanlarının artırılması üçün İƏT ölkələri arasında əməkdaşlığı təşviq etmək, eləcə də İƏT regionu boyunca dayanıqlı, inklüziv və davamlı cəmiyyətlərin formalaşmasında qadınların rolunu vurğulamaq və gücləndirməkdir.

Ən yaxşı və ortaq təcrübələrə əsaslanan bu tədbir qadınların cəmiyyətin bütün sahələrinə verdiyi töhfəni dərk edərək İƏT üzv dövlətlərində qadınların iqtisadi və sosial inkişafda rolunu gücləndirməyi və tanıtmağı hədəfləyir.




Qeyd edək ki, forumda Naxçıvan Muxtar Respublikasının nümayəndə heyəti – Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi mətbuat orqanı olan “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova da iştirak edib.

## Fərid Bağırzadə: “Əminik ki, bu forum qadınların potensialının daha dolğun reallaşmasına təkan olacaq”

“Laçında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən birgə keçirilən forumda iştirak etdik. Təşkil olunan bu mühüm tədbirdə qadınların cəmiyyətin inkişafında oynadığı əvəzsiz rol bir daha diqqətə çatdırıldı. Qadınlar həm ailənin, həm də cəmiyyətin əsas dayağıdır. Onlara göstərilən dəstək, əslində, gələcəyimizə edilən ən qiymətli sərmayədir”.

Bu sözləri ilk dəfə Laçın şəhərində keçirilən İƏT Qadınlar Forumunda iştirak edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Fərid Bağırzadə deyib.




Nazir müavini qeyd edib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qadınların sosial müdafiəsinin gücləndirilməsi, xüsusilə onların məşğulluq imkanlarının artırılması, habelə əmək bazarında gender bərabərliyinin təmin olunması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Təhlillər göstərir ki, əmək bazarında qadınların rolu getdikcə artır. Onlar öz əməyi ilə ölkəmizin ictimai-mədəni, sosial-iqtisadi inkişafına dəyərli töhfələr verir.

“Panel müzakirələrdə qadınların iqlim dəyişiklikləri ilə mübarizədə, “yaşıl iqtisadiyyat”da, təhsil və texnologiya sahələrində fəal iştirakı geniş müzakirə olundu. Bu məsələlər artıq ölkəmizin sosial siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilib. Əminik ki, bu forum gələcək üçün dəyərli nəticələr verəcək və qadınların potensialının daha dolğun reallaşmasına təkan olacaq”, – deyə Fərid Bağırzadə vurğulayıb.

## Laçın Hava Limanı – doğma torpağa qayıdışın ən uca ünvanı

Biz bu gün Laçının səmasındayıq... Bəli, uzun illər nisgillə baxdığımız, azadlıq üçün dua etdiyimiz, hər qarışına can verdiyimiz o müqəddəs torpağın səmasında... Göylə yer arasında qəribə bir səssizlik var – qürurun səsi. Duyğuların səsi. Sözlər boğazımızda düyünlənib, baxışlarımız buludlara dəyib geri dönür, gözümüzdə yaş, qəlbimizdə sonsuz sevinc.

Laçın bu gün bir ev kimi sinəsini geniş açıb. Qürurlu ev sahibi kimi qarşılayır qonaqlarını – bu torpağın azadlığı uğrunda canından keçənlərin ruhu ilə, yenidən doğulan Qarabağın nəfəsi ilə. Tədbirə qatılanlarla birlikdə biz də bu mübarək diyara yola çıxdıq. Amma bu, sadəcə, bir yol deyildi, bu, tarixə addım, yaddaşa səfər, şəhid ruhlarına bir səcdə idi. Laçın artıq təkcə coğrafi deyil, mənəvi bir simvoldur. Dirçəlişin, iradənin, mübarizənin və qadın gücünün təcəssümüdür.

Laçın Beynəlxalq Hava Limanına enəndə sanki yeni bir terminala deyil, tarixə enirdik.

Bura vaxtilə ağrıların, ayrılığın, hicranın rəmzi idi. İndi isə dirçəlişin, yenidənqurmanın, azad nəfəsin ünvanıdır. Laçının səmasında yüksələn hər təyyarə bir xalqın illərlə içində yaşatdığı ümidlərin qanadlanmış halıdır. Hər uçuşda bir dua, hər enişdə bir tarix yatır. Bu hava limanı sabaha açılan qapıdır. Qarabağın qəlbində tikilən bu möhtəşəm məkan bir millətin yenidən doğuluşunun şahididir. Burada çəkilən hər yol, ucaldılan hər bina xalqımızın səbrinin, şəhidlərimizin qanı ilə suvarılmış iradənin canlı sübutudur.

Və bu qapıdan içəri keçərkən – Laçının səmasından ayaq basarkən gözlərim doldu. Qəlbimdə bir-birinə qarışmış sevinc, hüzn və dərin minnətdarlıq vardı. Bu torpağın azadlığı üçün canından keçən şəhidlərimizin ruhu bu gün rahatdır. Onlar bizi görür. Onlar bilir ki, idealları, arzuları, mübarizələri hədər getməyib.

Laçın – bir zamanlar yad əllərdə olan o doğma diyar bu gün Azərbaycan dövlətinin gücünü, liderinin iradəsini, xalqının birliyini dünyaya göstərən bir rəmzdir. Buradan qalxan hər təyyarə, sadəcə, istiqamət deyil, tarix dəyişir. Bu, yeni Qarabağın göydəki qapısıdır – azadlığın göy üzündə çəkdiyi imzadır.

Və biz bu imzanın şahidiyik. Bu torpaqda dayanmaq tarixin öz nəfəsini hiss etməkdir. Qəlbimizin ən dərin qatlarında bir səs səslənir:

Yaşasın Azərbaycan!




Yaşasın xalqımızın qüruru – Müzəffər Ali Baş Komandanımız, cənab İlham Əliyev!

Yaşasın Laçın – doğulduğu yerdə yenidən dirçələn Vətənin səmadakı simvolu!

**✍ Sara ƏZİMOVA**
**“Şərq qapısı” qəzetinin baş redaktoru**
**Naxçıvan-Bakı-Laçın**
**1 iyul 2025-ci il**



# "Konstitusiya və Suverenlik İli" Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaqdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması dövlətçilik, tariximizin öyrənilməsi, qüdrətli Azərbaycanın dünya ölkələri arasında nüfuzunun yüksəlməsi, müstəqilliyimizin dönməz və əbədi olmasında bir çox prinsiplərin əhəmiyyətini və mahiyyətini ön plana çıxarmaqda əvəzsiz rol oynayır. Çünki Azərbaycanın uğurlu inkişafının, dövlət siyasətinin əsasını insan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi təşkil edir.




XX əsrin son onilliyində Azərbaycan xalqı 2-ci dəfə dövlət müstəqilliyini "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktı ilə bərpa etməyə nail olsa da, bu aktda Konstitusiya haqqında Azərbaycan Respublikası vətəndaşlarının real hüquq və vəzifələri, dövlətimizin məram və məqsədləri tam mənada öz əksini tapmamışdır. Belə bir vəziyyətdə ölkədə Konstitusiya boşluğu açıq-aydın görünürdü. Bu tarixi zərurəti nəzərə alaraq Ulu Öndər Heydər Əliyev yeni milli Konstitusiyanın hazırlanması qərarına gəldi. Milli Məclisin 1995-ci il 2 may tarixli Qərarı ilə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında 33 nəfərdən ibarət Konstitusiya komissiyası yaradıldı. Ümummilli Liderimiz Heydər Əliyev yeni milli Konstitusiyanı mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: ***"Biz elə bir Konstitusiya qəbul etməliyik ki, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin etsin, Əsas Qanun tarixi sənəd olsun. Müstəqilliyimizin əsas atributu olan bu sənəd dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisədir".***

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası ölkəmizin milli, demokratik, hüquqi dövlət quruculuğunun əsasını qoymuş, yeni dövlətin gələcək inkişafına təkan vermişdir. Əsas Qanunumuzda insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyin göstəricisidir. Sonrakı illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər müasir çağırışları və yenilikləri özündə əks etdirməkdədir. 24 avqust 2002-ci il, 18 mart 2009-cu il, 26 sentyabr 2016-cı ildə keçirilən referendumlarda vəsiqə alan əlavə və dəyişikliklər qanunvericilik bazasının zənginləşməsi, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsi, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılması istiqamətlərində müstəsna əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Konstitusiyasında, BMT-nin 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və digər beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları ilə yanaşı, vətəndaşların əsas vəzifələri də öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək: ***"Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına çevrilməsidir".***

Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Qanunumuzda qeyd edilir ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqları ilə bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlara əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş vəzifələri yerinə yetirməlidir. Çünki hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Hər bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır. Vətənini sevməlidirlər. Vətəni qorumaq öz elini, obasını, ana torpağını, yurdunu, şərəfini qorumaqdır. Vətəni qorumaq xalqımızın tarixini, mənəviyyatını, əsrlərboyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu şərəfli yoldur, şərəfli vəzifədir. Çünki Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Belə bir müdrik kəlam var: "Vətənini ən çox sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir". Ulu Öndər Heydər Əliyevin söylədiyi kimi: ***"Gərək nəbzin Vətənin nəbzi ilə vursun... Vətənpərvərlik insanın daxilindəki duyğulardır".*** Çünki hər birimiz yaşadığımız cəmiyyət qarşısında bir üzv kimi müəyyən öhdəliklər daşıyırıq.

Konstitusiyada təsbit olunmuş digər bir vəzifə isə dövlət rəmzlərinə hörmətdir. Hər bir vətəndaş dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. Azərbaycan Respublikasının dövlət rəmzləri – Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir. Çünki dövlət rəmzləri hər bir dövlətin varlığını təcəssüm etdirən əsas amildir. Ulu Öndərin söylədiyi kimi: ***"Xalqımız üçün qürur yaradan, iftixar hissi verən odur ki, o artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var".*** Xalqımızın imzası onun dövlət rəmzlərində ifadəsidir. Hər bir şəxs cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpası yolundakı ən mühüm mərhələ 2020-ci ilin sentyabr ayında Vətən müharibəsi ilə başlanıb. Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri işğal altında qalmış torpaqlarımızı geri qaytarmaq üçün hərbi əməliyyatlara başladı. Bu müharibə yalnız Azərbaycan xalqının torpaq uğrunda apardığı mübarizə deyil, həm də Azərbaycanın dövlət müstəqilliyi və suverenliyinin qorunması uğrunda böyük bir mücadilə idi. 44 günlük Vətən müharibəsində müzəffər Ordumuz Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs Vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə "Zəfər Günü" kimi yazıldı. 2023-cü ildə həyata keçirilən uğurlu antiterror əməliyyatı ilə Azərbaycanın suverenliyi bu ərazilərdə tam şəkildə bərpa edildi. Xankəndi şəhərində Azərbaycan Bayrağının ucaldılması ilə dövlət suverenliyimiz tam şəkildə bərqərar oldu. Bu zəfər Ulu Öndər Heydər Əliyev yolunun və cənab İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təntənəsinə çevrildi. Bu zəfər bir daha onu göstərdi ki, cənab İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının həyata keçirilməsinə, dövlətçiliyimizin möhkəmlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun güclənməsinə xidmət edir.

Ölkə başçısı cənab İlham Əliyevin ötən il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamı tarixboyu öz xüsusi əhəmiyyəti ilə seçiləcək. Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan sentyabrın 20-si imzalanan Sərəncama əsasən hər il ölkəmizdə "Dövlət Suverenliyi Günü" kimi qeyd edilir.

"Konstitusiya və Suverenlik İli" Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı olacaq, həmçinin ölkəmizin beynəlxalq arenada daha güclü mövqeyə sahibliyini və öz suveren hüquqlarını qorumaq istiqamətində prinsipal mövqe tutacağını bir daha nümayiş etdirəcəkdir. Atılacaq yeni addımlar nəticəsində Azərbaycan yeni hədəflərinə də çatacaq. Bu gün qürur hissi ilə deyə bilərik ki, dövlətimiz atdığı addımlarda, apardığı uğurlu siyasətdə hər zaman Konstitusiyaya, beynəlxalq hüquqa və ədalətə söykənərək bütün dünyaya nümunə təqdim edir.

**Səfiyar ABIŞOV**
***Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin müəllimi***

# Regional əməkdaşlıq layihələri fonunda nəqliyyat-logistika sahəsinin inkişafı




✍ **Cavanşir BAĞIRLI**

*Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin əsas tərkib hissələrindən olan birgə əməkdaşlıq layihələri və bu sahədə qazanılmış uğurlar beynəlxalq arenada ölkəmizin nüfuzunu xeyli yüksəldib. "XXI əsrin layihəsi" adlandırılan, olduqca mühüm strateji əhəmiyyət kəsb edən "Cənub Qaz Dəhlizi" layihəsinin əsas aparıcı qüvvəsi kimi Azərbaycanın tutmuş olduğu mövqe bu istiqamətdə həyata keçirilən xarici siyasətin təcəssümüdür. Bununla yanaşı, son illərdə Cənubi Qafqaz və Orta Asiya regionlarında baş verən geosiyasi dəyişikliklər, enerji və ticarət marşrutlarının yenidən formalaşması fonunda Azərbaycan artıq təkcə enerji ixracatçısı kimi deyil, həm də strateji nəqliyyat-logistika qovşağı kimi ön plana çıxmağa başlamışdır. Ölkəmiz regional əməkdaşlıq layihələrində fəal iştirak etməklə nəinki öz iqtisadi mövqeyini gücləndirmiş, eyni zamanda Avropa və Asiya arasında körpü rolunu oynayan vacib ölkələrdən birinə çevrilmişdir.*

Bu baxımdan diqqətçəkən ilk layihələrdən biri Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. 2017-ci ildə istismara verilmiş bu xətt Çindən Avropaya alternativ ticarət marşrutu yaradaraq Azərbaycanın beynəlxalq tranzit potensialını əhəmiyyətli dərəcədə artırmışdır. Bakı-Tbilisi-Qars marşrutu yükdaşımalarının həm vaxt, həm də xərc baxımından daha səmərəli təşkilinə imkan verir. Rəsmi məlumatlara görə, 2024-cü ilin əvvəlinə qədər bu dəmir yolu vasitəsilə daşınan yüklərin həcmi 3,4 milyon ton olmuşdur. Bu, Azərbaycanın dəmir yolu infrastrukturu sahəsində strateji inkişaf siyasətinin konkret nəticəsidir.

Azərbaycanın iştirak etdiyi digər mühüm layihə isə Orta Dəhliz, yəni Trans-Xəzər Beynəlxalq nəqliyyat marşrutudur. Orta Asiya türk dövlətləri, Gürcüstan və Türkiyə ilə birlikdə formalaşdırılmış bu marşrut Şərqlə Qərb arasında yükdaşımalarında alternativ və daha təhlükəsiz yol təklif edir. Orta Dəhliz Çin-Avropa ticarətində yükdaşımalarının müddətini azaldır və Rusiyadan yan keçən bu marşrut geosiyasi cəhətdən daha sabit seçim sayıla bilər. Azərbaycan və Çin arasında inkişaf edən siyasi və iqtisadi münasibətlər Orta Dəhlizi Çindən Avropaya alternativ və təhlükəsiz nəqliyyat marşrutu kimi ön plana çıxarır. Çin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində bu dəhlizə böyük maraq göstərir və Azərbaycan bu təşəbbüsün əsas iştirakçılarından biridir. 2025-ci ilin aprelində Prezident İlham Əliyevin Pekinə rəsmi səfəri zamanı Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlıq qurulmuş və əməkdaşlıq sənədləri imzalanmışdır. Bu sənədlər arasında "Beynəlxalq multimodal daşımalar haqqında Saziş" də yer alıb. Saziş dəmir yolu, dəniz və avtomobil nəqliyyatı vasitəsilə yüklərin daşınmasını asanlaşdırmaq məqsədi daşıyır. Azərbaycan-Çin münasibətləri Orta Dəhlizin nəqliyyat təhlükəsizliyi, iqtisadi rentabelliyi və beynəlxalq cazibədarlığının artmasına birbaşa təsir edir. Bu əməkdaşlıq Asiya ilə Avropa arasında yeni bir ticarət körpüsünün möhkəmlənməsinə səbəb olur.

Azərbaycanın reallaşdırmaq üzrə olduğu böyük geostrateji əhəmiyyətə malik layihələrdən biri isə Zəngəzur dəhlizidir. 2020-ci ildə şanlı qələbə ilə başa çatan Vətən müharibəsindən sonra imzalanmış üçtərəfli bəyanatda nəzərdə tutulan bu dəhliz Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə yanaşı, Türkiyəyə və daha sonra Avropaya uzanan yeni bir nəqliyyat xəttinin əsasını qoyacaq. Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, eyni zamanda Orta Asiya ölkələrinin Avropa bazarına çıxışı üçün alternativ və daha effektiv marşrut ola bilər. Elə bu müstəvidən baxdıqda layihə reallaşdıqdan sonra regionda iqtisadi və siyasi inteqrasiyanın daha da dərinləşəcəyi şübhəsizdir.

Bütün bu nəqliyyat-logistika təşəbbüslərinin mərkəzində isə Azərbaycanın əsas dəniz qapısı olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və onun ətrafında yaradılan Ələt Azad İqtisadi Zonası dayanır. Xəzər dənizinin ən böyük və müasir texnologiyalarla təchiz edilmiş limanı olan bu mərkəz illik 15 milyon ton yükötürmə qabiliyyətinə malikdir və yaxın illərdə bu göstəricinin 25 milyon tona çatdırılması nəzərdə tutulur. Ələt ərazisində yaradılan azad iqtisadi zona isə logistik imkanlarla yanaşı, sənaye və investisiya potensialını da artıraraq Azərbaycanın regional iqtisadi güc mərkəzinə çevrilməsinə töhfə verir.

Bütün bu uğurlar Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunu və region ölkələri ilə qarşılıqlı əməkdaşlığa əsaslanan strategiyasının nəticəsidir. Azərbaycanın həm Avropa, həm də Asiya ilə paralel əməkdaşlığını təmin edən "körpü ölkə" statusu, bu regionda nəqliyyat və logistika baxımından davamlı və dayanıqlı inkişafın əsas dayaqlarından birinə çevrilmişdir.

Nəticə etibarilə, Azərbaycanın nəqliyyat və logistika sahəsində həyata keçirdiyi regional əməkdaşlıq layihələri onu qlobal ticarət sistemində ən önəmli strateji məkana çevirir. Bu layihələr təkcə ölkə iqtisadiyyatının güclənməsinə deyil, eyni zamanda regional sabitliyin və əməkdaşlığın təmin olunmasına xidmət edir. Qlobal nəqliyyat xəritəsində getdikcə daha aydın görünən Azərbaycan yaxın illərdə beynəlxalq yükdaşımalarında əsas tranzit qovşaqlarından biri olmağa real namizəddir.

## “Arşın mal alan” tamaşasının premyerası keçirilib





Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə Naxçıvan Dövlət Kukla Teatrı tərəfindən “Arşın mal alan” operettası əsasında hazırlanmış eyniadlı tamaşanın ilk nümayişi olub.

Naxçıvan Dövlət Kukla Teatrında keçirilən tədbirdə əvvəlcə teatrın foyesində qurulmuş sərgiyə baxış keçirilib.

Tədbiri giriş sözü ilə teatrın direktoru Səyyad Məmmədov açaraq bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci il 3 fevral tarixdə “Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq dahi bəstəkarın yubileyi ölkə səviyyəsində yüksək şəkildə qeyd olunur. Məhz bu tamaşa da dahi bəstəkarın 140 illiyinə həsr olunub.

Sonra marionetka üsulu ilə hazırlanmış “Arşın mal alan” tamaşası izləyicilərə təqdim olunub.

Tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, tamaşanın quruluşçu rejissoru Səyyad Məmmədov, musiqi tərtibatçısı Əli Məmmədov, quruluşçu rəssamı Ədalət Quliyevdir.

## “Heydər Əliyev kuboku” uğrunda futzal turnirinin qalibi bəlli olub



Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları arasında təşkil edilən “Heydər Əliyev kuboku” uğrunda futzal turniri başa çatıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının birgə təşkil etdikləri turnirin üçüncülük və final qarşılaşmaları iyunun 30-u İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşıb.

Üçüncü yer uğrunda görüşdə Mədəniyyət Nazirliyinin komandasına 5:4 hesabı ilə qalib gələn Dövlət Vergi Xidmətinin təmsilçiləri bürünc medalçı olublar.

Finalda isə Təhsil və Ədliyyə nazirlikləri meydanda olublar. Əsas mükafat uğrunda mübarizədə 1:1 hesablı bərabərlik qeydə alındığından qalib penaltilər seriyasında məlum olub. Penaltiləri üstün tamamlayan Ədliyyə Nazirliyinin komandası turnirin qalibi olub.

Görüşdən sonra mükafatlandırma mərasimi keçirilib. Mükafatları Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini, nazir vəzifələrini icra edən Məcid Seyidov, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin şöbə müdiri Tarverdi Məmmədov və NFF-nin baş katibi Raqif Abbasov və digərləri təqdim ediblər.

Əvvəlcə turnir ərzində fərqləndiklərinə görə Mirziz Seyidov, Cavid Əsgərov, İsmayıl Allahverdiyev və Abbas Məmmədov nominasiya qalibləri kimi mükafatlandırılıblar.

Sonra isə ilk üç yerin sahibi olan komandaların üzvlərinə diplom və medallar, qalib komandaya isə “Heydər Əliyev kuboku” təqdim olunub.

## Gürcüstan arxivlərindən, Əlyazmalar Mərkəzindən və Muzey fondlarından 1000-ə yaxın arxiv sənədi gətirilib



AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin növbəti iclası keçirilib. İclası AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq əvvəlcə gündəlikdəki məsələləri diqqətə çatdırıb.

Daha sonra İsmayıl Hacıyev Azərbaycan Respublikasının Prezidentinin “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında 19 mart 2025-ci il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr barədə məlumat verib.

Bölmənin Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində 2025-ci ilin birinci yarısı üzrə elmi və elmi-təşkilati fəaliyyətə dair yarımillik hesabatın hazırlıq vəziyyəti barədə Rəyasət Heyətini məlumatlandırıb.

AMEA Naxçıvan Bölməsi tərəfindən Naxçıvanla bağlı arxiv materiallarının aşkar olunaraq həmin sənədlərin əlçatanlığını təmin etmək məqsədilə son illər ərzində Türkiyə, Rusiya və Gürcüstan arxivlərinə elmi ezamiyyələrin təşkil olunduğunu diqqətə çatdıran akademik İsmayıl Hacıyev bildirib ki, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev cari ilin 10 may-7 iyun tarixlərində Gürcüstanda elmi ezamiyyədə olmuşdur.

Tarix üzrə fəlsəfə doktoru Musa Quliyev iclasda həmin elmi ezamiyyənin nəticələri ilə bağlı məlumat verib. Təcrübəli alim ezamiyyə dövründə Gürcüstan Dövlət Arxivində, K.Kekelidze adına Gürcüstan Milli Əlyazmalar Mərkəzində, Gürcüstanın Simon Canaşia Muzeyində, habelə tanınmış gürcü şairi Nikoloz Barataşvilinin evmuzeyində apardığı axtarışlardan bəhs edib. Gürcüstan Dövlət Arxivinin fondlarında saxlanılan arxiv sənədlərinin toplanılmasına XIX əsrin əvvəlindən başlandığını qeyd edən alim Dövlət Arxivindən və Gürcüstan Milli Əlyazmalar Mərkəzindən əldə etdiyi materiallar barədə müfəssəl məlumat verib.

Musa Quliyev çıxışı zamanı bildirib ki, ezamiyyə nəticəsində Naxçıvan tarixi, etnoqrafiyası, mədəniyyəti ilə bağlı 1000-ə yaxın sənəd və əlyazmanı ölkəyə gətirmişdir. Sənədlər sırasında Bəhram Naxçıvanskinin Qafqaz canişinliyində işləməsi haqqında sənədləri, İ.Şopenin 70 səhifəlik kameral siyahısı (Naxçıvan haqqında), Hüseyn xan Naxçıvanskinin Qafqaz canişinliyinin dəftərxana rəisinə yazdığı məktub, Ehsan xanın naib təyin olunması ilə bağlı 44 səhifəlik xidmət kitabçası, İ.Paskeviçin Naxçıvan haqqında yazdığı məktublar, Məhəmməd ağa Şaxtaxtinski, general mayor Kalbalı xan Naxçıvanski, eləcə də əldə olunmuş başqa sənədlər Naxçıvan tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Əldə olunan materiallar arasında tarixçi Cəmil Quzanlının farsca əsərinin rus qafqazşünası K.N.Smirnovun rus dilinə tərcümə variantı da vardır.

Nikoloz Barataşvilinin evmuzeyində apardığı axtarışlardan danışan alim qeyd edib ki, o, 1844-cü ildə Naxçıvanda işləyərkən şairə Qönçəbəyimlə tanış olmuşdur. 1845-ci ildə yanvarın 10-da ona “Qönçəbəyim” adlı şeiri ithaf etmişdir. Tədqiqatçı həmin şeiri Tiflisdən tapıb gətirmişdir.

Çıxışının sonunda alim gələcəkdə Gürcüstan arxivlərində araşdırma aparmaq istəyən tədqiqatçılarla təcrübələrini bölüşüb və bəzi tövsiyələr verib.

Gündəlikdəki digər elmi-təşkilati məsələlərin müzakirəsindən sonra akademik İsmayıl Hacıyev iclasa yekun vurub.

## *“Gənc xilasedici və yanğınsöndürən”* yarışının qalibləri mükafatlandırılıb



Qəbələ şəhərində Fövqəladə Hallar Nazirliyi tərəfindən təşkil olunan nazirliyin yaranmasının 20 illiyinə həsr olunmuş “Gənc xilasedici” XI Beynəlxalq yarışı və “Gənc xilasedici və yanğınsöndürən” XII ümumrespublika birinciliyinin qaliblərinin mükafatlandırma mərasimi olub.

Mükafatlandırma mərasimində Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Gənclər və İdman Nazirliyinin məsul əməkdaşları, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Vətən müharibəsi şəhidlərinin övladları və ailə üzvləri, media və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, komandalar yarışlarda “Maneələr zolağı”, “Kombinə edilmiş yanğın estafeti”, “Axtarış-xilasetmə işi”, “Komandaların təqdimatı” və “Divar qəzeti” mərhələlərində güclərini sınayıblar. Gərgin mübarizə şəraitində yarışın ümumrespublika birinciliyində birinci yerə Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbi, ikinci yerə Quba rayonu Qaraçay qəsəbə tam orta məktəbi, üçüncü yerə isə Sumqayıt şəhər 4 nömrəli tam orta məktəbi layiq görülüb.

## Liseylərə qəbul imtahanı keçirilib



İyunun 25-də 2025-2026-cı tədris ili üçün Naxçıvan Qızlar və Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü liseylərə ölkə üzrə mərkəzləşmiş qaydada qəbul imtahanı keçirilib.

İmtahanlarda VI və VII sinifləri bitirən şagirdlər iştirak edib.

Naxçıvan Qızlar Liseyində keçirilən imtahanda 63, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə keçirilən qəbul imtahanında isə 234 şagird imtahan verib. İmtahanda şagirdlərə Azərbaycan dili və riyaziyyat fənnindən qapalı test formasında, ümumilikdə, 60 sual təqdim olunub və 150 dəqiqə vaxt ayrılıb.

Məlumat üçün bildirək ki, liseylərə ən yüksək nəticə göstərən 60 şagird qəbul olunacaq.

Qeyd edək ki, ötən tədris ilindən muxtar respublikada liseylərə qəbul ölkə üzrə mərkəzləşmiş qaydada aparılır.




## Naxçıvan komandası ardıcıl ikinci dəfə beynəlxalq gimnastika festivalında qalib olub




Bakıda “Gimnastika hamı üçün” növü üzrə üçüncü beynəlxalq “Challenge” adlı tədbir təşkil olunub. Dənizkənarı Milli Parkda təşkil olunan festivalda 4 ölkə – Azərbaycan, Gürcüstan, Monqolustan və Uqandadan yaşından və fiziki hazırlıq səviyyəsindən asılı olmayaraq, 900-ə yaxın iştirakçı və 52 komanda yer alıb. Azərbaycanı təkcə paytaxtdan olan komandalar deyil, həm də ölkənin müxtəlif bölgələrindən olan iştirakçılar təmsil ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasını “Naxçıvan” (məşqçi: Humay Qafarova) və “Şərur” (məşqçi: Xanım Əhmədova) komandalarından, ümumilikdə, 21 idmançı təmsil edib.

Çıxışı birinci yerlə qiymətləndirilən “Naxçıvan” komandası ötən il olduğu kimi, bu dəfə də turnirin qaliblərindən biri olub. Şərurlu gimnastlar isə ötənilki nəticələrini yaxşılaşdıraraq ikinci yerə sahib çıxıblar.

Qeyd edək ki, iştirakçılar iki yaş kateqoriyası – 50 yaşdan aşağı və 50 yaşdan yuxarı proqramları üzrə bacarıqlarını göstəriblər. Festivalda ustad dərsləri, komandaların rəngarəng yürüşləri, “Gimnastika hamı üçün” növü üzrə çıxışlar və hər yaş qrupunun zövqünə xitab edən əyləncə proqramları nümayiş olunub. Festivalın keçirilməsində məqsəd gimnastikanın təkcə idman deyil, həm də sağlam həyat tərzinin nümunəsi, eyni zamanda əyləncə forması olduğunu sübut etməkdir.

# Parağaçaydan – Zəngəzurun ətəyindən salam!



Bu dəfə yolumuz yenidən Ordubadın Parağaçay qəsəbəsinədir. Zəngəzur silsiləsinin ətəyində, Qapıcığın zirvəsinə tamaşa edən səssiz, sakit, lakin könül danışdıran bir məkan. Yol bizi uca dağların qoynuna aparır. Hər döngə bir nəfəsdir, hər yamac bir səhnə. Yolun hər iki tərəfində göyə ucalan dağlar arxasından boylanan qapqara buludlar bu yurdun əzəmətini içimizə hopdurur. Hər addımda torpağın nəfəsini, yaşılın cingiltisini eşidirsən. Və birdən...

Qarşımızda açılır bu səssiz kəndin görünüşü.

Köhnə taxta evlər, qırmızı kirəmitli damlar, kərpicdən hörülmüş soba başı, yol qırağında dayanmış bir su quyusu... Kəndin qəlbində bir ev, çöl qapısı bağlı, pəncərəsi səssiz. Amma divarları danışır. Sükutu olan bu evlər nə qədər keçmişi, nə qədər həyatı içində saxlayır... Parağaçay qəsəbəsinin dağların qoynunda qərar tutmuş, vaxtın tozuna bürünmüş, lakin ruhunu itirməmiş taxta evləri. Bu evlər hələ də nəfəs alır...

Torpağa basılmış izlərdən görünür ki, buradan bir zamanlar həyətə çörək qoxusu yayılıb, uşaqlar qaçışıb, inəklər su içib, samovar qaynayıb...

İndi isə burada sükutun içində yaşanmış illərin xatirəsi var. Və bu xatirə susmur, danışır.

Bu səfərdə qəsəbənin əsl sakinlərindən biri – Sərxan dayı ilə də görüşdük. Neçə illərdir, burada yaşayır. Parağaçayın nəfəsini yaşadan adamlardan biridir. Parağaçay elə bir məkandır ki, səsi sakitlikdə eşidilir. Dağların nəfəsi, torpağın ətri, qəsəbənin içindəki gümrah, yaşıl, zəhmətin siması olan köhnə tikililər – hamısı bir, bütövlükdə, yaşayır. Əgər Vətən bir ömürlük sevgidirsə, Parağaçay bu sevginin içində təpər, səbir, sədaqət və sükutdur.

Və bu sükutun içindən Məmməd Arazın misraları yada düşür:

*Bu dağlarda duman olaydım,*
*Elin çəkdiyi dərdə salaydım.*
*Sənsiz ötən illərin, ayların*
*Qoxusunu daşa yazaydım...*

Parağaçay Qapıcığın çırağıdır. Səssiz, qürurlu və daimi. Təbiətin səsi ilə danışan, Vətənin nəfəsi ilə yaşayan bir yurd yeri. Burada sərhəd yoxdur, burada sevgi var. Torpağa, dağa, yaddaşa və gələcəyə.

Bu səssiz qəsəbənin qoynundan ayrılarkən bir daha anlayırsan: "Bir qarış yurdun özündə bir ömürlük hekayə yatır".

**"Şərq qapısı"**





# Arxeoloji tədqiqatlar tariximizin açılmamış qatlarını üzə çıxarır

Yolumuzu bu dəfə tariximizin dərindən öyrənilməsi üçün səfərbər olan arxeoloqlarla görüşə istiqamətləndirdik. İstiqamət Ordubad rayonunun Kələntər Dizə kəndi yaxınlığında yerləşən orta əsrlərə aid şəhər yeri Xaraba Gilandır. Qədim şəhərin qalıqları bu gün arxeoloqlarımız tərəfindən zərif toxunuşlarla böyük bir zəhmətin qarşılığında öyrənilir. Həmkarlarım Rafiq Təhməz və Zülfüqar Qurbanlı ilə hündür təpələri qalxdıqca qarşımızda tarix səhnəsi açılırdı. Yolboyu rəngarəng şirli saxsı qırıntılarını gördükcə həmin dövrə səyahət etmiş olurduq. Nostalji hisslərlə həmkarlarımla söhbətləşərək Xaraba Gilan şəhər yerinin 2-ci memorial kompleksində 1 saylı türbənin yanında qərar tutduq.

Qeyd edim ki, bizimlə bərabər bu qədim şəhərə Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin professor-müəllim heyəti, eləcə də Tarix və Tarix müəllimliyi ixtisasında təhsil alan tələbələri də orada idi. Bizi ömrünü tarixi köklərimizin, maddi mədəniyyətimizin izlərinə həsr etmiş tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli qarşıladı. Bəhlul müəllim sanki sinəsidolu canlı tarix ensiklopediyasıdır. Hal-əhval tutduqdan sonra bizi yeni tapıntılarla tanış etməyə başladı. Dayandığımız ərazinin XII əsrin sonu XIV əsrin əvvəllərinə aid memorial kompleks olduğunu bildirən müsahibimiz qeyd etdi ki, şəhər yerində artıq bir memorial kompleks məlum olduğundan və qismən tədqiq olunduğu üçün bu kompleksi şərti olaraq 2-ci memorial kompleks adlandırmışıq. Burada səkkiz türbə var. Bu türbələr ailə sərdabələridir və dəfn adəti Son Tunc dövründən başlayaraq Naxçıvan ərazisində ardıcıl olaraq davam edib. Yəni bir ailənin üzvləri dünyasını dəyişdikcə bu sərdabədə dəfn olunub.

Məlumdur ki, Eneolit dövründə mərhumu yaşayış yerində – evlərin döşəməsində və həyətlərdə dəfn edirdilər. Erkən Tunc dövründən ayrıca nekropollar yaranırdı. Son Tunc dövründən başlayaraq artıq ailə sərdabələri əmələ gəlmişdi, bir ailənin üzvlərini vəfat etdikcə ayrı-ayrı yox, bir sərdabənin içərisində dəfn edirdilər. Ona görə də bir sərdabədə dəfn 100-150 il davam edirdi. Ailə üzvləri vəfat etdikcə onları ailə sərdabəsində dəfn edirdilər.

Plovdağın ikinci və üçüncü nekropollarında təkdəfnli kurqanlarda çoxdəfnli adətin ilkin variantını izləmişdik. Bu qəbirlər təkdəfnli adətindən çoxdəfnli adətə keçid dövrünə aiddir. Bir nəfər üçün nəzərdə tutulmuş daş qutu qəbirdə üç adam üst-üstə dəfn olunmuşdu. Orta əsr türbələri də çoxdəfnli adətin inkişaf etmiş formasıdır. Naxçıvan-Marağa memarlıq məktəbinə aid memorial abidələr memarlıq üslubundakı orijinal elementlərinə, tikinti materiallarının keyfiyyətinə görə digər abidələrdən fərqlənirlər. Tikinti materialları içərisində yerli vulkanik daşı və yüksəkkeyfiyyətli gəci xüsusilə qeyd etmək lazımdır. Yüksək seysmik bölgədə yerləşən Naxçıvan ərazisindəki tikililər üçün bunun böyük əhəmiyyəti olmuşdur. Onu da deyim ki, mütəxəssislər də Naxçıvanın orta əsr gəcini müasir sementdən ayıra bilmir. Məhz bu keyfiyyətli tikinti materialları sayəsində Möminə xatun (1186), Yusif Küseyir oğlunun (1162) türbələri dövrümüzədək saxlanılmışdır.

İkinci memorial kompleksin əhəmiyyəti barədə danışan müsahibimiz deyir ki, buradakı sərdabələrdə dəfnlərin çoxu Elxanilər (İlxanilər) dövrünə aiddir. Həmin dövrün dəfn adəti hələ tam öyrənilməyib. Biz elə İslam dövrü deyirik, lakin nəzərə almaq lazımdır ki, Hülakülər İslamı qəbul etdilər, yəni müsəlman oldular, dəfnləri də müsəlman adətləri ilə oldu. Amma İslam dinini qəbul etsələr də, xüsusən dəfn adətində öz qədim adət-ənənələrini qoruyub saxladılar. Gördüyümüz kimi, ikinci memorial kompleksdəki türbələr formaca müsəlman türbəsi olsa da, tabutlarda mahiyyətcə fərqlənirlər. Bu sərdabələrdə dəfn taxtadan, xüsusi formada hazırlanmış müsəlman tabutlarında həyata keçirilir, ölülər geyimdə başının altında yastıq, yorğan, döşəklə dəfn olunublar. Eyni zamanda maraqlı cəhətlərdən biri də odur ki, tabutların içərisindən cəviz, ərik, şaftalı çəyirdəkləri aşkar olunur. Qızıl Orda, Elxanilər dövlətləri ərazilərindəki eyni dövrün abidələrində aparılan tədqiqatların nəticələri göstərir ki, bu dəfn adətinin bir elementi olmuşdur.



Qəbirlər dağıdılmış vəziyyətdə olsalar da, onlardan çox unikal parça nümunələri tapılır. Bəzi parçalar var ki, Mərkəzi Asiyada, Yaxın Şərqdə istehsal olunub. Parçalarda Çinin təsiri daha çox izlənir. Çox ehtimal ki, bu parçalar içərisində Azərbaycanda, eləcə də Naxçıvanın özündə də istehsal olunan parçalar vardır. Parçalarda ən çox diqqəti cəlb edən naxışlar və onların semantikasıdır. Yazılı, eyni zamanda, üzərində at, əjdaha, quş təsvirləri olan parçalar da vardır. Bu parçalar içərisində Səlcuqlu dövründə, üzərində səkkizguşəli ulduz, qoç buynuzu təsvirləri olan nümunələrə də rast gəlirik. Bu naxışların bir çoxu, xüsusən astral inancla, tanrıçılıqla, atalar kultu ilə bağlı olan naxışlar, hələ Erkən Tunc dövründən Naxçıvan ərazisində geniş yayılmışdı. Çeşidinə gəldikdə isə burada dörd növ parça tapılıb ki, ən çox rast gəlinən yun, kətan, ipək, pambıq parçalardır. Xalça kimi toxunan parçalar da vardır. Bəzəkli parçaların ən yaxşı nümunələri 19 saylı qəbirdə aşkar olundu. Beləliklə, deyə bilərik ki, Naxçıvanın IX-XIV əsrlər maddi mədəniyyətinin və tarixinin tədqiqində Xaraba Gilan şəhər yerindəki memorial komplekslərin tədqiqinin müstəsna elmi əhəmiyyəti vardır.

*Bu xarabalığa çevrilmiş qədim şəhərdə gördüklərimizdən, Bəhlul İbrahimlinin maraqlı söhbətlərindən gəldiyimiz qənaət birmənalıdır: burada tariximiz yatır. Bu tarixi araşdırmalar isə tarixdə yaşayacaqlar.*

**✍ Aidə İBRAHİMOVA**



# Lavanda ətirli sahə



Naxçıvan bu dəfə ətri ilə hər kəsi valeh edən lavandanın becərilməsinə başlayıb. Bənövşəyi çiçəkləri ilə gözoxşayan bu bitkini artıq muxtar respublikanın torpaqlarında görmək mümkündür.



Lavanda bitkisinin vətəni Aralıq dənizinin Fransa və İspaniya sahilləri hesab olunsa da, bu bitki Şimali Afrikada, Şimali Amerikada, Rusiyada və Qara dəniz sahillərində də bitir. Avropada lavanda XVI əsrin sonlarından etibarən becərilməyə başlanılmışdır. Azərbaycanda ən çox Qafqazda təbii halda yayılmışdır. Lavanda bitkisi çoxillik bitkidir və öz ətrini illərlə qoruyub saxlaya bilir. Ədəbiyyat məlumatlarına əsasən 1922-ci ildə qədim Misir fironu Tutanxamonun mumyasında araşdırmalar zamanı ətirli lavandanın qalıqları aşkar edilmişdir. Dünyanın bir çox ölkələrində, o cümlədən İspaniya, İtaliya və Fransada lavandanın çoxlu növünə rast gəlinir ki, bunlardan ən əhəmiyyətlisi "Lavandula angustifolia" hesab olunur.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına Elmi-Tədqiqat İnstitutunun təşəbbüsü ilə 1 hektar sahədə lavanda bağı salınıb. Biz də üz tuturuq sözü gedən həmin ünvana. Sahəyə daxil olan zaman lavandalar ətri, sakitləşdirici qoxusu ilə birgə gözoxşayan bir mənzərə yaradır.

Elə həmin ərazidə Akademik Həsən Əliyev adına Naxçıvan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun direktoru, aqrar elmləri üzrə fəlsəfə doktoru, dosent Günel Seyidzadədən öyrənirik ki, lavanda bitkisi bir çox sahələrdə geniş istifadə olunur. Bu sahələrdən biri də arıçılıqdır ki, onun inkişaf etdirilməsində bitkinin bilavasitə böyük rolu vardır. Lavanda bitkisinin çiçəkləməsi iyun-iyul aylarına təsadüf edir və bu proses arılar üçün çox əlverişli bir müddətdir. Ballı bitki kimi lavanda kifayət qədər nektar ifraz edir ki, bu da arıçılığın inkişafına birbaşa stimul verir. Ona görə də arılar lavanda ərazisinə həvəslə uçuş edir. Lavanda bitkisinin bal məhsuldarlığı çox yüksəkdir və bir hektardan məhsuldarlıq 150-200 kiloqrama çatır. Bal məhsuldarlığı hava şəraitindən və biçilmə zamanından çox asılıdır. 1 hektar əraziyə, təqribən, 10-15 arı ailəsinin yerləşdirilməsi ailələrin inkişafına, sağlamlığına və immun sisteminin gücləndirilməsinə müsbət təsir göstərir.

Müsahibimiz bildirdi ki, lavanda bitkisinin xalq təbabətində rolu əvəzolunmazdır, belə ki, bu bitkinin yağından bir çox sahələrdə, həmçinin distillə yolu ilə alınmış efir yağlarından kosmetologiyada və dermatologiyada geniş istifadə olunur. Təzə lavanda çiçəklərindən əldə edilən təbii yağ bütün orqanizmin tarazlığının tənzimləyir, yuxusuzluğu və sinir gərginliyini azaldır.

Zəngin tərkibinə görə lavanda yağı antiseptik və antispazmatik təsirə malik olub qurudulmuşundan aromaterapidə (efir yağı terapi) sakitləşdirici vasitə kimi istifadə edilir. Lavanda yağı təbiətin hədiyyəsi olaraq bilinən aromatik məhsuldur. Qoxusu depressiyada ruh düşgünlüyündə, eyni zamanda əhvali-ruhiyyənin yaxşılaşdırılmasında yüksək təsirə malikdir. Lavanda yağı nevroz xəstəliklərində, yuxusuzluqda, stres və gərginlik hallarında, həmçinin mədə-bağırsaq xəstəliklərində geniş istifadə olunur. Bitkinin yağı qurdqovucu və ödqovucu vasitə kimi işlədilir. Revmatiq ağrılarda sürtkü vasitəsi kimi istifadə olunmaqdadır.

Müsahibimiz qeyd etdi ki, ilk dəfə olaraq lavanda bitkisinin (Lavanda angustifolia) muxtar respublika şəraitində tədqiqat məqsədilə əkini keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına Naxçıvan Elmi-Tədqiqat İnstitutunun təşəbbüsü ilə 1 hektara yaxın ərazidə lavanda bitkisi becərilib. Bitki muxtar respublikanın iqlim şəraitinə adaptasiya olunur və yay, yaz fəsillərində tələb olunan aqrotexniki tədbirlərə düzgün riayət olunarsa, gələcək illərdə lavanda plantasiyalarının salınması və sənaye miqyasında becərilməsi nəzərdə tutulur. Hazırda lavanda bitkisi Azərbaycanın Abşeron, Qəbələ və Zaqatala bölgələrində becərilir. Bu siyahıya artıq Naxçıvan da qoşulub. Quraqlığa davamlı olması və torpaq-iqlim şəraitinə uyğunlaşması səbəbi ilə lavandanın gələcəkdə bölgə üçün həm iqtisadi, həm də ekoloji baxımdan faydalı olacağı gözlənilir. Belə görünür ki, yaxın illərdə Naxçıvanda bənövşəyi çiçəklərdən ibarət lavanda sahələrinə teztez rast gələcəyik.

✍ Bülbül RÖVŞƏNQIZI

## Kənd təsərrüfatının siyahıya alınması mühüm dövlət tədbiridir

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın müvafiq bəndinə uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 oktyabr 2023-cü il tarixli 357 nömrəli Qərarı ilə 2025-ci il iyulun 15-dən avqustun 15-dək Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıya alınması keçiriləcəkdir.

Ölkəmizdə hər 10 ildən bir keçirilən bu tədbirin əsas məqsədi cari statistik uçot məlumatlarının dəqiqləşdirilməsi, kənd təsərrüfatında baş verən proseslərin qiymətləndirilməsi, o cümlədən sonuncu dəfə 2015-ci ildə keçirilmiş siyahıyaalmadan sonrakı dövr ərzində baş vermiş struktur dəyişikliklərin təhlili üçün zəruri məlumatların əldə edilməsi, aqrar bölmədə həyata keçirilən dövlət siyasətinin informasiya təminatının yaxşılaşdırılması və bu sahənin gələcək inkişafı ilə bağlı qərarların qəbul edilməsi üçün keyfiyyətli məlumatların əldə edilməsindən ibarətdir.

Kənd təsərrüfatının siyahıya alınmasının muxtar respublikada mütəşəkkil yerinə yetirilməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 dekabr tarixli 132s nömrəli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının siyahıya alınmasına yardım komissiyası yaradılmışdır. Bundan əlavə, muxtar respublikanın şəhər və rayon icra hakimiyyətləri başçılarının müvafiq sərəncamları ilə inzibati ərazi vahidləri üzrə müvafiq yardım komissiyaları yaradılıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına, həmçinin muxtar respublikada kənd təsərrüfatının siyahıya alınmasına cəlb olunacaq təsərrüfatların sayına uyğun olaraq şəhər və rayon icra hakimiyyətlərindən daxil olmuş siyahılara əsasən muxtar respublika üzrə 723 nəfər, o cümlədən 63 təlimatçı-nəzarətçi, 641 sayıcı və 19 ehtiyat sayıcı ilə xidmətlər üzrə satınalma müqaviləsi imzalanmışdır. Müqavilə imzalanmış şəxslərin 73-ü Naxçıvan şəhərinin, 186-sı Şərur, 139-u Babək, 102-si Ordubad, 77-si Culfa, 54-ü Kəngərli, 45-i Şahbuz və 47-si Sədərək rayonlarının payına düşür.

Siyahıyaalmanın aparılması üçün ötən dövr ərzində aidiyyəti strukturlarla birlikdə müəyyən işlər görülmüş, kənd təsərrüfatı məhsulu istehsalçılarını siyahıyaalmaya cəlb etmək məqsədilə 16 plakat-bannerin və 2160 plakatın muxtar respublikanın yaşayış məntəqələrində müəyyən edilmiş dislokasiyalar üzrə yerləşdirilməsi təmin edilmişdir. Hazırda bu istiqamətdə müəyyən edilmiş tədbirlərin icrası davam etdirilir. Siyahıyaalma ilk dəfə olaraq planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə keçiriləcəkdir.

2025-ci il iyulun 15-dən avqustun 15-dək keçiriləcək kənd təsərrüfatının siyahıya alınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, heyvan və quşların sayı, istifadə olunan yemin növləri, kənd təsərrüfatı məqsədləri üçün istifadə edilən qeyri-yaşayış tikililəri, işçi qüvvəsi, balıqyetişdirmə (akvakultura) və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**




# "ASAN xidmət" mərkəzində əhaliyə arxiv xidməti də göstərilir

Hələ qədim dövrlərdən arxivlərin meydana gəlməsinə xüsusi ehtiyac yaranmış, Səfəvilər dövründən etibarən arxiv fəaliyyətinin ilkin forması öz təşəkkülünü tapmışdı. Belə ki, həmin dövrlərdə verilən fərmanlar, qanunlar külliyyatı və sair mühafizəçilər tərəfindən qorunmuş, bu ənənə sonrakı dövrlərdə də davam etdirilmişdir. Bütün növ sənədlərin qorunub saxlanması həm dövlətimizin keçmişi haqqında daha dəqiq məlumat əldə etməyə imkan verir, həm də əhali üçün lazım olan sənədlərin yox olmaması baxımından xüsusi önəm daşıyır. Azərbaycanda arxiv işinin yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlayır. Həmin dövrlərdə baş vermiş mürəkkəb ictimai-siyasi hadisələr arxiv işinin yaranması prosesinin tamamlanmasına imkan verməдиyindən sonrakı dövrlərdə sahibkarlara məxsus fabrik, zavod və digər müəssisələrin sənəd və materiallarının toplanması və saxlanılması işi olduqca çətinləşmiş, arxiv işinin yaradılması zərurəti yaranmışdır.



Ölkəmizdə arxiv işinin dövlət səviyyəsində təşkili məhz 1920-ci ili əhatə edir. Müasir dövrdə arxiv işi yüksək səviyyədə qurulub və bu sahədə arxiv işçilərinin rolu danılmazdır.

Bu gün ölkəmizdə fəaliyyət göstərən bütün dövlət arxivləri öz xidmətlərini "ASAN xidmət" mərkəzlərində ən yüksək səviyyədə həyata keçirir. Naxçıvan regional "ASAN xidmət" mərkəzində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi də həmin arxivlər sırasındadır.

Bəs burada, əsasən, hansı xidmətlər göstərilir? Bunu Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin Arxiv fond sənədlərindən istifadə və publikasiya şöbəsinin əməkdaşı Gülay Məmmədovadan öyrənirik. Gülay xanım 2023-cü ildən etibarən Naxçıvan regional "ASAN xidmət" mərkəzində arxiv xidmətində çalışır. Müsahibimiz deyir ki, bu xidmət fiziki və hüquqi şəxslərin müraciəti əsasında onların hüquqi və qanuni mənafelərini təmin edəcək sosial-hüquqi xarakterli məlumat daşıyıcısı olan arxiv arayışı, yaxud arxiv sənədlərindən çıxarışların verilməsini əhatə edir.

Gülay xanım bildirir ki, xidmətin həyata keçirilmə formaları poçt xidməti vasitəsilə xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcılarda təqdim olunması, yaxud elektron müraciət forması ilə oluna bilər.

Arxiv xidməti də digər xidmətlər kimi Azərbaycan Respublikasının bu sahə ilə bağlı müəyyən etdiyi qanunvericilik aktlarına əsasən aparılır. O qeyd edir ki, xidmət "Ödənişli arxiv xidmətlərinin siyahısının və onların göstərilməsinə görə xidmət haqlarının məbləği"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli Qərarına əsasən aparılır. Həmçinin əlavə edir ki, həmin qərarda öz əksini tapan şəhid ailələri, qazilər və əlilliyi olan şəxslərə xidmət ödənişsiz şəkildə həyata keçirilir.

Hazırda Naxçıvan regional "ASAN xidmət" mərkəzinin Arxiv arayışlarının verilməsi bölməsində Naxçıvan Dövlət Arxivini uğurla təmsil edən 3 əməkdaş çalışır. Onlar Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin həyata keçirdiyi xidmətlər üzrə vətəndaş məmnuniyyətinin təmin olunmasına görə əllərindən gələni əsirgəmir və onlar üçün yaradılmış şəraitin müqabilində vətəndaşlara layiqli şəkildə xidmət etməyi özlərinə borc bilirlər.

✍ Türkanə ƏSƏDOVA

## DÜNYA xəbərləri

### Türkiyənin illik ixrac həcmi rekord səviyyəyə çatıb

Bu ilin iyun ayının sonuna olan məlumata görə, Türkiyənin illik ixrac həcmi 267 milyard dollara çatıb ki, bu da cümhuriyyət tarixində rekord göstəricidir.

Bu barədə çərşənbə günü, iyulun 2-də İstanbulda keçirilən mətbuat konfransında Türkiyənin ticarət naziri Ömer Bolat məlumat verib.

Bu ilin iyun ayında Türkiyə ixracının həcmi 20,5 milyard dollar təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə səkkiz faiz çoxdur. Eyni zamanda xaricə mal və xidmətlərin təklifində ümumi artım tendensiyası qeydə alınır.

Nazir ümidvar olduğunu bildirib ki, ilin sonuna qədər ölkənin illik ixrac həcmi 270 milyard dollar təşkil edəcək. O əlavə edib: "Məqsədimiz xarici ticarət kəsirini mümkün qədər azaltmaqdır".

### Ulduzlararası məkandan gəlmiş cisim Günəş sisteminə daxil olub

Astronomlar Günəş sisteminə kənardan daxil olmuş səma cismi aşkar ediblər. Bu barədə Avropa Kosmik Agentliyi məlumat yayıb.

A11pl3Z adlandırılan səma cisminin ölçüsünün 10-20 kilometr uzunluqda olduğu bildirilir. Astronomların fikrincə, saatda 200 min kilometr (60 km/saat) sürətlə hərəkət edən cismin orbiti Günəş ətrafında deyil və o ulduzlararası məkana qayıdacaq. Onun orbiti Marsla kəsişəcək və 2026-cı ildək müşahidə olunacaq.

Çox yüksək sürətə baxmayaraq, A11pl3Z Yer planeti üçün heç bir təhlükə təşkil etmir.

### İngiltərədə ilk dəfə süni insan DNT-si yaradılır

Dünyada ilk dəfə olaraq insan həyatının əsas quruluş elementlərini sıfırdan yaratmaq məqsədi daşıyan mübahisəli layihəyə start verilib. Böyük Britaniyanın ən iri tibbi xeyriyyə təşkilatı olan "Wellcome Trust" bu istiqamətdə tədqiqatlara başlamaq üçün ilkin olaraq 10 milyon funt sterlinq maliyyə ayırıb. Təşkilat hesab edir ki, bu layihə müalicəsi mümkün olmayan bir çox xəstəliklər üçün yeni terapiyaların inkişafını sürətləndirərək daha çox fayda gətirə bilər.

Tədqiqatın ilk mərhələsində alimlər getdikcə daha böyük insan DNT blokları yaratmağın yollarını inkişaf etdirməyi planlaşdırırlar. Nəhayət, tamamilə süni yolla hazırlanmış bir insan xromosomu yaratmaq hədəflənir. Xromosomlar insan inkişafını, orqanizmin təmirini və saxlanmasını idarə edən genləri ehtiva edir. Bu süni xromosomlar üzərində aparılacaq tədqiqatlar DNT və genlərin bədənimizdə necə işlədiyini daha yaxşı anlamağa imkan verəcək.

# Rəng, musiqi və enerji bir arada!
















Naxçıvanda autizmli uşaqlara dəstək məqsədilə "ƏNGƏL-siz COLORFEST" keçirilib.

"Autizmli Uşaqlara Dəstək" İctimai Birliyi tərəfindən "Saat Meydanı" İstirahət Kompleksində autizmli uşaqlara dəstək məqsədilə keçirilən "ƏNGƏL-siz COLORFEST"ə Naxçıvan sakinləri böyük maraq göstərib. Festivalın açılış tədbirində bildirilib ki, festival, sadəcə, bir əyləncə tədbiri deyil. Bu, ürəklərin rənglərlə danışdığı, sevgini və mərhəməti paylaşdığı birlik günüdür. Konsertdən əldə olunan bütün vəsait autizmli uşaqların reabilitasiyasına xərclənəcək.

Sonra uşaqların rəngli dünyasına start verilib. Naxçıvan Dövlət Uşaq Filarmoniyasının fidanlarının rəqs nümunələri festivala daha da rəng qatıb. Rəng festivalı təqdim olunan konsert proqramı ilə davam edib. Gecə boyunca DJ Asadoff, Zara Rəhimli və "O səs Türkiyə" müsabiqəsinin finalisti Seda Yiyin səhnə alıb. Rənglərin ahəngi ilə davam edən musiqi dəqiqələrində ifaçılar səhnədən enərək uşaqlarla birgə mahnılar səsləndiriblər.

## Dünya çempionatının qalibləri sırasında yer almaq qürurverici idi

Rusiyanın Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində keçirilmiş kəmər güləşi üzrə dünya çempionatında Azərbaycan milli komandası uğurlu nəticə əldə edib. Yarışda 29 ölkədən 300-ə yaxın idmançı mübarizə aparıb.




Yığmamızın heyətində yer alan Naxçıvan Muxtar Respublikasının təmsilçisi Kazım İsmayıllı da dünya çempionatının medalçıları sırasında yer alıb. O, böyüklər arasında 60 kiloqram çəki dərəcəsində üçüncü olub.

İlk qarşılaşmada iranlı rəqibini tam üstünlüklə məğlub edən Kazım İsmayıllı növbəti mərhələdə Özbəkistan təmsilçisinə uduzaraq təsəlliverici görüşlərə qatılıb. Burada o, ardıcıl olaraq Misir və Qırğızıstan idmançılarını, daha sonra isə üçüncü yer uğrunda keçirilən qarşılaşmada gürcü rəqibini tam üstünlüklə məğlub edərək bürünc medala sahib çıxıb.

Biz də dünya çempionatının bürünc medalçısı Kazım İsmayıllı ilə telefon əlaqəsi vasitəsilə təəssüratlarını öyrənirik. O bildirdi: "Yarışda çox güclü rəqiblərimiz var idi. Böyüklər arasında rəqabət kifayət qədər yüksək olsa da, bu yarışa ciddi şəkildə hazırlaşmışdıq. Yarışda yer almağımın ən böyük səbəbkarı isə şəxsi məşqçim Xəyyam Abdullayevdir. Düzdür, daha yaxşı nəticə əldə oluna bilərdi, lakin bu, bir daha sübut edir ki, daha səylə çalışmaq lazımdır. Bütün bunlara baxmayaraq, həvəsdən düşmürük, qarşıdakı turnirlərə daha güclü məşqlər və motivasiya ilə hazırlaşırıq.

İlk rəqibim İran idmançısı idi və ona tam üstünlüklə qalib gəldim. Sonra görüşlərdə Misir və Qırğızıstan idmançılarına qarşı da tam üstünlüklə qələbə qazandım".

Müsahibimiz qeyd etdi: "Bu mənim ilk ölkə xarici yarışım deyil. 2024-cü ilin 13 noyabrında keçirilən kəmər güləşinin sərbəst növü üzrə böyüklər arasında dünya ikincisi olmuşam. Dəfələrlə beynəlxalq turnirlərin qalibi və Avropa çempionu olmuşam. Həm də qeyd etməliyəm ki, 2024 dünya çempionatında ən gənc idmançı mən idim.

Bütün uğurlarım mənim üçün dəyərlidir. Xüsusilə də yeniyetmə yaşımda Azərbaycana böyüklər arasında keçirilən kəmər güləşi üzrə ilk dəfə gümüş medal gətirməyim mənim üçün qürurvericidir. İnşallah, gələcəkdə məqsədim daha da yaxşı hazırlaşıb bayrağımızı kürsünün ən yüksək pilləsində dalğalandırmaq və dünya çempionatında qızıl medal əldə etməkdir. Bu yolda mənə dəstək olan valideynlərimə və məşqçimə dərin təşəkkürümü bildirirəm".

Biz də idmançımıza uğurlar arzu edirik.

**"Şərq qapısı"**

## Gənclər rəsm bacarıqlarını nümayiş etdiriblər



"Konstitusiya və Suverenlik İli" münasibətilə Ordubad şəhərində gənclərin "VI Art Battle" rəsm müsabiqəsi keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunan yarışmada onlayn qeydiyyatdan keçmiş gənclər öz bacarıqlarını nümayiş etdiriblər.

Nazirlik tərəfindən lazımi rəsm ləvazimatları ilə təmin olunan iştirakçılar müsabiqənin şərtlərinə uyğun olaraq Naxçıvanın tarixini, mədəniyyətini və ya təbiətini özündə təcəssüm etdirən rəsmlər çəkiblər.

Nəticələrə gəlincə İnci Qənbərovanın yaradıcı işi münsif heyəti tərəfindən 1-ci yerə layiq görülüb. Səadət Həziyeva 2-ci, Nuray Qasımova isə 3-cü olub. Sonda gənclərə diplom və hədiyyələr, fəxri fərmanlar təqdim olunub.

### İtmişdir

Şərur rayonu, Maxta kənd sakini Əliyeva Sona Məmməd qızının adına olan JN-344$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Camaldın kənd sakini Nəcəfov Əli Hüseyn oğlunun adına olan 480$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

İsmayılov Qərib Qələndər oğlunun adına olan JN-056$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 19, ev 16$^{D}$ ünvanında Dünyamalıyev İbrahim Sabir oğluna məxsus evin 17611 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kəndində yaşamış Əliyev Xudaverdi Əli oğluna məxsus JN-284$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürçülü kəndində yaşamış Baxşəliyev Hümbət Hümbət oğluna məxsus JN-204 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axura kənd sakini İmanov Şakir İsa oğluna məxsus JN-218 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini İsmayılov Malik Hüseyn oğluna məxsus JN-175 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kənd sakini Seyidov Məmməd Təvəkkül oğluna məxsus JN-147$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğanlı kənd sakini Quliyev Kərim Sudeyif oğluna məxsus JN-122 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Şəhriyar kənd sakini Abdullayeva Sədaqət Rəsul qızına məxsus JN-34 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Culfa şəhər sakini Sadıqov Ramil Əsgər oğlunun adına olan 106013001913 reyestr nömrəli, A-012784 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Cəfərov Malik Cəlal oğlunun adına olan JN-157$^{A}$ nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Yarımca kənd sakini Yusifova Məleykə Dadaş qızının adına olan torpaq sahəsinin 103013026054 reyestr nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kəndində yaşamış Əliyev Ədalət Vəli oğlunun adına olan 16$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Məmmədli Rüzgar Əkbər oğlunun adına verilmiş JN-769 nömrəli torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Məmmədsabir kənd sakini Quliyev Fikrət İskəndər oğlunun adına verilmiş MH-0030524 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkəndində yaşamış Əliyev Səfər Hüseyn oğlunun adına verilmiş JN-625 nömrəli torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası İctimai Səhiyyə Xidmətinin direktor müavini Şeyda Şıxəliyeva və xidmətin kollektivi səhiyyə naziri Samiq Sadıxova atası

**ASƏF SADIXOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ QAPISI

**Baş redaktor:**
SARA ƏZİMOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 181

***Nömrəyə məsul:*** **Bülbül Rövşənqızı, Cavanşir Bağırlı, Rafiq Təhməzov**
***Dizayner:*** Lətif Zeynalov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*